

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "Torpaq bizimdir, lakin ölkəmizlə bağlı qərarlar Parisdə qəbul olunur"

*Azərbaycana ilk dəfədir səfər edirəm. Burada ilk günlərim olmasına baxmayaraq, əminliklə deyə bilərəm ki, Bakı şəhəri Parislə müqayisədə çox təmiz, modern və gözəl şəhərdir.*



5


SƏS

№ 116 (6799)

6 iyul 2023-cü il.
Qiymәti 60 qәpik


# Qoşulmama Hərəkatı - Ədalətli nizam uğrunda!




2

*PREZİDENT İLHAM ƏLİYEV: "Azərbaycan qoşulmama hərəkatına sədrliyi dövründə üzv ölkələrin qanuni maraqlarını qətiyyətlə qoruyub"*

# Ermənistana növbəti dərsin verilməsinə ehtiyac var!

5



## Sirli Şərq aləmi - "Azərbaycanın İsveçrəsi!"



8

## DNT deqradasiyası yaradan qulaqcıqlar



11

## Erməni müxalifətçi: "Paşinyan yalnız özünü və kreslosunu qoruyur, hamını satacaq"



14

## Zəlzələ ilə bağlı BİLMƏLİ OLDUQLARIMIZ



7

## Çimərliyə gedənlər, bu məlumatı mütləq oxuyun!



16

# Qoşulmama Hərəkatı - Ədalətli nizam uğrunda!




***Bu günlər yenə də dünyanın diqqəti Azərbaycana yönəlib. İki gün – iyulun5-6-dək davam edən növbəti beynəlxalq tədbirə ev sahibliyi edən Bakı Konqres Mərkəzində Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşü keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə çıxış edib.***

## *PREZİDENT İLHAM ƏLİYEV: "Azərbaycan qoşulmama hərəkatına sədrliyi dövründə üzv ölkələrin qanuni maraqlarını qətiyyətlə qoruyub"*

Qeyd edək ki, Qoşulmama Hərəkatı dünyada BMT Baş Assambleyasından sonra ən böyük beynəlxalq təsisatdır. Və 2019-cu ildən etibarən Azərbaycan Qoşulmama Hərəkatının (QH) üzv ölkələrinin yekdil qərarı ilə üç il müddətinə QH-yə sədrliyi həyata keçirməyə başladı. Azərbaycanın sədrliyi dövründə gördüyü işlərə, irəli sürdüyü təşəbbüslərə və təsisatın fəaliyyətinin genişləndirilməsi, beynəlxalq aləmdə nüfuzunun artması istiqamətində atdığı addımlara görə ölkəmizə etimadın göstəricisi kimi Hərəkata sədrliyimiz daha bir il uzadıldı.

### PREZİDENT İLHAM ƏLİYEVİN HƏYATA KEÇİRDİYİ UĞURLU XARİCİ SİYASƏTİN NÖVBƏTİ TƏZAHÜRÜ - DAHA BİR İL

Bəli, Azərbaycanın BMT-dən sonra dünyada ikinci böyük beynəlxalq təşkilatına - Qoşulmama sədrlik etməsi ölkəmizin dünya birliyində qazandığı böyük nüfuzundan xəbər verir. Qeyd edək ki, Qoşulmama Hərəkatına sədrliyi və belə mötəbər tədbirlərə ev sahibliyi etmək ölkəmizin multilateralizmə və qlobal həmrəyliyə verdiyi önəmin göstəricisidir. Məhz Qoşulmama Hərəkatına 3 illik sədrliyi 2022-ci ildə bitməli olan Azərbaycanın Hərəkata sədrliyi bir il uzadıldı. Bəli, Azərbaycan 4 il sədrlik etməklə bir ilkə imza atdı. Qeyd edək ki, dünyanın ərazi, əhali və iqtisadi baxımdan güclü olan ölkələri bu hərəkatın üzvüdür və Qoşulmama Hərəkatı heç bir hərbi bloka qoşulmadan dünya miqyasında bütün problemlərin danışıq yolu ilə həll edilməsi və beynəlxalq hüququn əsas götürülməsini prioritet kimi götürür. 2019-cü ildə dünyada qazandığı siyasi nüfuza görə Azərbaycan bu təşkilatın sədri seçilməsi və təşkilat tarixində ilk dəfə olaraq sədrlik müddətinin bir il uzadılması Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasətin növbəti təzahürüdür.

### "AZƏRBAYCAN QOŞULMAMA HƏRƏKATINA SƏDRLİYİ DÖVRÜNDƏ ÜZV ÖLKƏLƏRİN QANUNİ MARAQLARINI QƏTİYYƏTLƏ QORUYUB"

Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda Nazirlər görüşündə söyləyib ki, Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə "Bandunq prinsipləri" əsasında ədaləti, beynəlxalq hüququ və üzv ölkələrin qanuni maraqlarını qətiyyətlə qorudu.

Üzv ölkələrin yekdil qərarı ilə Azərbaycanın 2019-2022-ci illər üçün sədrliyi öz üzərinə götürdüyünü xatırladan dövlət başçısı deyib ki, beynəlxalq ictimaiyyət COVID-19 pandemiyası ilə necə mübarizə aparacağı barədə çaşqın vəziyyətdə olarkən, bu çağırışla mübarizədə qlobal səyləri birləşdirən məhz Qoşulmama Hərəkatı olub.

Prezident İlham Əliyev, həmçinin onu da bildirib ki, Qoşulmama Hərəkatının institusional inkişafı, xüsusən də müvafiq olaraq 2021-ci və 2022-ci illərdə Hərəkatın Parlament Şəbəkəsinin və Gənclər Təşkilatının yaradılması Azərbaycanın sədrliyinin növbəti nailiyyətidir: "Biz hazırda Qoşulmama Hərəkatının qadınlar platformasının yaradılması üzərində işləyirik. İnstitusional davamlılığa doğru atılan bu addımlarla biz növbəti sədrlərə mütləq uğurlu bir miras qoyacağıq".

### PREZİDENT QOŞULMAMA HƏRƏKATINA SƏDRLİYİ DÖVRÜNDƏ AZƏRBAYCANIN PRİORİTETLƏRİNDƏN DANIŞIB

Prezident İlham Əliyev Qoşulmama Hərəkatının (QH) Əlaqələndirmə Bürosunun Nazirlər görüşündə Hərəkata sədrliyi dövründə Azərbaycanın prioritetlərindən danışıb. Ehtiyacı olan ölkələrə yardım göstərilməsinin Azərbaycanın sədrliyinin prioritetlərindən biri olduğunu deyən dövlət başçısı bildirib: "Azərbaycan əksəriyyəti QH-yə üzv olan 80-dən çox ölkəyə ya ikitərəfli qaydada, ya da Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə COVID-19 ilə bağlı maliyyə və humanitar dəstək göstərib. Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları məbləğində könüllü töhfə verib. Biz, həmçinin beş ölkəni peyvəndlə təmin etmişik".

Afrika və inkişaf etməkdə olan kiçik ada dövlətlərinə postpandemiya dövründə bərpanı dəstəkləmək üçün iki qlobal çağırış elan etdiyini xatırladan Prezident İlham Əliyev Azərbaycanın ilk donor kimi hər iki çağırış üçün 1 milyon ABŞ dolları ayırdığını diqqətə çatdırıb.

### "ÖLKƏLƏRİN DAXİLİ İŞLƏRİNƏ MÜDAXİLƏ HALLARINA QARŞI ÖZ SƏSİMİZİ UCALTMALIYIQ"

Prezident İlham Əliyev Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən nazirlər görüşündə bildirib ki, multilateralizmin əsl müdafiəçisi və BMT-dən sonra ikinci böyük təsisat kimi Qoşulmama Hərəkatı yenidən formalaşan dünya nizamında öz yerini tapmalıdır. "Biz "Bandunq prinsipləri" ətrafında qətiyyətlə dayanmalı, suverenliyin və ərazi bütövlüyünün pozulması, ölkələrin daxili işlərinə müdaxilə hallarına qarşı öz səsimizi ucaltmalıyıq", - deyən dövlətimizin başçısı vurğulayıb ki, Hərəkatın dünya məsələlərində daha ön mövqedə olması mühüm əhəmiyyət kəsb edir.

### "BMT TƏHLÜKƏSİZLİK ŞURASI KEÇMİŞİN QALIĞIDIR"

"Hazırda beynəlxalq təşkilatlar, xüsusilə BMT bəşəriyyətin gözləntilərinə cavab vermir. BMT-də ciddi islahatların aparılması qaçılmazdır". Bu fikirləri Prezident İlham Əliyev Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən Nazirlər görüşündə söyləyib. BMT Təhlükəsizlik Şurası (TŞ) keçmişin qalığı olduğunu və hazırkı reallıqları əks etdirmədiyini vurğulayan dövlət başçısı deyib: "Biz Təhlükəsizlik Şurasında daha çox ölkənin təmsil olunması və coğrafi baxımdan daha ədalətli olması üçün onun tərkibinin genişləndirilməsinin tərəfdarıyıq. Şadam ki, bu gün bu ideya ilə bağlı dünyada artan konsensus vardır". BMT TŞ-də Qoşulmama Hərəkatına bir daimi yerin verilməli olduğunu xatırladan Prezident əlavə edib: "Biz bu fikirdəyik ki, QH-yə, İƏT-ə və Afrika İttifaqına sədrlik edən ölkələr BMT Təhlükəsizlik Şurasında veto hüququ ilə rotasiya əsasında yer almalıdırlar".

### "FRANSA NEOKOLONİALİZMİ HƏLƏ DƏ DAVAM ETDİRƏN ÖLKƏLƏRDƏN BİRİDİR"

Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən nazirlər görüşündə söyləyib ki, neokolonializmi hələ də davam etdirən ölkələrdən biri Fransadır: "Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır". Dövlətimizin başçısı bildirib ki, Fransa Qəmər adalarının Mayot adası üzərində suverenliyinə, həmçinin Yeni Kaledoniya xalqının, o cümlədən özünün digər dənizaşırı icma və ərazilərində yaşayan xalqların hüquqlarına hörmət etməlidir.

Prezident İlham Əliyev onu da vurğulayıb ki, Azərbaycan neokolonializm meyillərinin artmasından olduqca narahatdır. Dövlətimizin başçısı qeyd edib ki, dekolonizasiya prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatı keçmişin bu utancverici mirasına qarşı qətiyyətlə mübarizə aparmalı və onun tamamilə aradan qaldırılmasına öz töhfəsini verməlidir.

### "FRANSA AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİNDƏ ERMƏNİ SEPARATİZMİNİ DƏSTƏKLƏYİR"

Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşündə söyləyib ki, özünü yalandan insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi qələmə verən Fransa hələ də digər ölkələrin daxili işlərinə qarışır.

Fransa qoşunlarının bu yaxınlarda Mali və Burkina-Fasodan çıxarılmasının onun Afrikadakı amansız neokolonializm siyasətinin uğursuzluğa məhkum olduğunu bir daha göstərdiyini vurğulayan dövlətimizin başçısı qeyd edib: "Təəssüf ki, Fransa Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək, geosiyasi rəqabət, xarici hərbi mövcudluq və "Orientalizm" müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda da eyni mənfur təcrübəni tətbiq etməyə çalışır".

"Fransanın soyqırımlarla dolu hakimiyyəti dövründə 1,5 milyona yaxın əlcəzairli qətlə yetirilib. Hələ də Paris muzeyində əlcəzairli azadlıq döyüşçülərinin kəllə sümükləri müharibə qənimətləri kimi saxlanılır",- deyən dövlətimizin başçısı şunun utancverici və iyrənc hərəkət olduğunu qeyd edib: "Biz Fransa prezidenti Emmanuel Makrondan həmin qəhrəmanların qalıqlarını Əlcəzairə təhvil verməsini tələb edirik".

Ardı Səh. 3



# Qoşulmama Hərəkatı - Ədalətli nizam uğrunda!

Əvvəli-Səh-2

### “FRANSADA RƏSMİ ŞƏXSLƏR VƏ PARLAMENTARİLƏR TƏRƏFİNDƏN İRQİ NİFRƏT XARAKTERLİ ÇIXIŞLAR ARTMAQDADIR”

”Fransada, xüsusilə də mediada və internetdə müəyyən etnik azlıqlara qarşı davamlı və geniş şəkildə yayılmış irqçi, ayrı-seçkilik salan fikirlər, rəsmi şəxslər və parlamentin iki palatasının üzvləri tərəfindən irqi nifrət xarakterli çıxışlar getdikcə artmaqdadır”. Bu fikirləri Prezident İlham Əliyev Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən nazirlər görüşündə səsləndirib.

Dövlətimizin başçısı deyib: ”Əcdadları müstəmləkə siyasətinə məruz qalmış, qul kimi istifadə olunmuş, öldürülmüş, işgəncələr verilmiş və alçaldılmış insanlardan milyonlarla insanın qarşısında üzr istənilməsi yalnız Fransanın tarixi günahının etirafı olmayacaq, həm də Fransanın əlcəzairli yeniyetmənin vəhşicəsinə öldürülməsindən sonra qarşılaşdığı dərin siyasi, sosial və humanitar böhranın nəticələrinin aradan qaldırılmasına kömək edəcək”.

### “ƏLCƏZAİR ƏSİLLİ 17 YAŞLI YENİYETMƏNİN FRANSA POLİSİ TƏRƏFİNDƏN QƏTLƏ YETİRİLMƏSİ BU ÖLKƏDƏ İRQÇİLİYİN VƏ İSLAMOFOBİYANIN DAHA BİR ƏLAMƏTİDİR”

Prezident İlham Əliyev beynəlxalq tədbirdə Fransada polis tərəfindən öldürülən yeniyetmədən danışıb: ”Bu yaxınlarda Əlcəzair əsilli 17 yaşlı yeniyetmənin Fransa polisi tərəfindən qətlə yetirilməsi bu ölkədə irqçiliyin və islamofobiyanın daha bir əlamətidir”. Dövlətimizin başçısı qeyd edib: ”Bu baxımdan biz BMT-nin polisin atəş açmasını pisləyən və Fransanı “hüquq-mühafizə orqanlarında irqçilik və ayrı-seçkiliyin dərin problemlərini ciddi şəkildə həll etməyə” çağıran bəyanatını dəstəkləyirik”

Dövlətimizin başçısı onu da bildirib ki, Fransa özünü Azrbaycandakı erməni milli azlığının müdafiəçisi kimi göstərməyə çalışır: ”Fransa hətta Korsika dilinə qadağa qoyur və etnik azlıqlar konsepsiyasını qəbul etmir, lakin, eyni zamanda, özünü Azərbaycandakı erməni milli azlığının müdafiəçisi kimi göstərməyə çalışır. Bu, riyakarlıq və ikili standartlardan başqa bir şey deyil”. Dövlətimizin başçısı diqqətə çatdırıb ki, Fransa hakimiyyəti başqalarına mühazirə oxumağa cəhd etmək əvəzinə, öz ölkəsində bu cür narahatedici meyillərlə mübarizə aparmalıdır.

### ”İSLAMIN ZORAKILIQ VƏ TERRORLA EYNİLƏŞDİRİLMƏSİ CƏHDLƏRİNDƏN NARAHATIQ”

”Mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi bizim gündəliyimizdə öndə duran məsələlər olmalıdır”. Bunu Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündə çıxışı zamanı deyib. Geniş vüsət alan islamofobiya və ksenofobiya hallarından, həmçinin İslamın zorakılıq və terrorla eyniləşdirilməsi cəhdlərindən narahatlığını ifadə edən Prezident bildirib: “Danimarkada, Niderlandda, İsveçdə müqəddəs Quranın yandırılması və təhqir olunması və buna ifadə azadlığı adı altında bəraət qazandırılması tamamilə məsuliyyətsizlikdir, qəbulolunmazdır və bu, pislənilməlidir”.

### ”AZƏRBAYCANIN VƏTƏN MÜHARİBƏSİNDƏ QƏLƏBƏSİ BEYNƏLXALQ HÜQUQUN VƏ ƏDALƏTİN ZƏFƏRİDİR”

Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən “Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli” mövzusunda nazirlər görüşündə çıxışı zamanı söyləyib ki, Qoşulmama Hərəkatına sədrliyimiz dövründə Azərbaycan xalqı üçün ən önəmli və yaddaqalan məqam Vətən müharibəsində tarixi qələbəmiz oldu: ”2020-ci ildə Azərbaycan Ermənistanı döyüş meydanında məğlub edərək 30 illik işğala son qoydu”.

### “AZƏRBAYCAN İNDİ BİR SIRA NƏHƏNG ÇAĞIRIŞLARLA ÜZ-ÜZƏDİR”

”Otuz il əvvəl Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin təxminən 20 faizini işğal etdi, həm Ermənistanda, həm də Azərbaycanın işğal olunmuş ərazilərində etnik təmizləmə həyata keçirib”. Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən “Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli” mövzusunda nazirlər görüşündə çıxışı zamanı bildirib. Ərazilərimiz işğaldan azad edildikdən sonra Azərbaycanın indi bir sıra nəhəng çağırışlarla üz-üzə olduğunu söyləyən dövlətimizin başçısı vurğulayıb: ”Keçmişdə işğal altında olmuş ərazilərdəki dağıntıların miqyasından dəhşətə gəldik. Azərbaycanın şəhər və kəndləri Ermənistan tərəfindən qəsdən dağıdılmış, talan olunmuş, bütün mədəni və dini abidələr, məscidlər təhqir olunmuş, qarət edilmişdir”.

Azərbaycan Prezidenti Ermənistan işğal etdiyi ərazilərdə urbisid, kultursid və ekosid törətdiyini deyib. İşğal altında olmuş ərazilərdəki 67 məsciddən 65-i dağıdıldığını, qalanlarının isə donuz və inəklər üçün tövlə kimi istifadə edildiyini xatırladan dövlətimizin başçısı bunu bütün dünya müsəlmanlarına qarşı təhqir adlandırıb. Prezident, həmçinin deyib ki, Azərbaycanın 60 min hektar meşəlik məhv edilib, kəsilib və daşınıb, torpaqlarımız və çaylarımız çirkləndirilib və zəhərləndirilib.

Prezident İlham Əliyev onu da söyləyib ki, Ermənistan Naxçıvanla sərhəddə ekoloji fəlakət törətməkdə davam edir: ”İndi Ermənistan Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə sərhədində xarici şirkətin cəlb olunması ilə transsərhəd ekoloji fəlakət törətməkdə davam edir”. Bununla Ermənistanın 1991-ci il Transsərhəd kontekstdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Konvensiyasından (Espoo Konvensiyası) irəli gələn öhdəliklərini pozmuş olduğunu vurğulayan dövlətimizin başçısı bildirib: ”Bu Konvensiyada ölkələrin mənfi transsərhəd təsirlərdən qaçmaq üçün bir-biri ilə məsləhətləşmələr aparmasının vacibliyi açıq şəkildə qeyd edilir”.

### “AZƏRBAYCAN HAZIRDA DÜNYADA MİNALARLA ƏN ÇOX ÇİRKLƏNDİRİLMİŞ ON ÖLKƏ SIRASINDADIR”

”Azərbaycan hazırda dünyada minalarla ən çox çirkləndirilmiş on ölkə sırasındadır. 2020-ci ilin noyabrında Vətən müharibəsi başa çatdıqdan sonra mina partlayışı nəticəsində təxminən 300 azərbaycanlı həlak olub və ya ağır yaralanıb”. Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündə çıxışı zamanı söyləyib. ”İşğaldan azad edilmiş ərazilərdə baş verən hər bir mina partlayışı Ermənistanın törətdiyi hərbi cinayətlərin uzun siyahısının davamıdır. Mina problemi Ermənistan tərəfindən Azərbaycan xalqının fundamental insan hüquqlarının pozulmasıdır” - deyə dövlətimizin başçısı əlavə edib.

### “ERMƏNİSTAN REGİONDA SÜLHDƏ MARAQLIDIRSA, ONUN SİLAHLI QÜVVƏLƏRİ QARABAĞDAN TAMAMİLƏ ÇIXMALIDIR”

Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Nazirlər görüşündə çıxışı zamanı deyib ki, münaqişə başa çatdıqdan az sonra Azərbaycan Ermənistanla bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında sülh sazişi imzalamaq üçün beş əsas prinsipini təqdim edib.

”Ermənistanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa məcbur olmasına baxmayaraq, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində hələ də Ermənistan silahlı qüvvələrinin qalıqları mövcuddur”, - deyən dövlətimizin başçısı vurğulayıb ki, əgər Ermənistan həqiqətən də regionda çoxdan gözlənilən sülhdə maraqlıdırsa, onda onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsindən tamamilə çıxmalıdır. Bölgədəki erməni hərbi və yarımhərbi elementləri tərksilah edilməli və tərxis olunmalıdır.

### “ERMƏNİSTAN ZƏNGƏZUR DƏHLİZİNİN AÇILMASINA MANE OLUR”

Prezident İlham Əliyev Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Nazirlər görüşündə çıxışı zamanı söyləyib ki, Ermənistan, həmçinin Zəngəzur dəhlizinin açılmasına mane olur: ”Zəngəzur dəhlizi Ermənistanın 2020-ci il noyabrın 10-da imzaladığı kapitulyasiya aktı ilə üzərinə götürdüyü digər öhdəlikdir və buna görə də yerinə yetirilməlidir”.

İşğal zamanı və işğaldan sonra Azərbaycanın ədalətli mövqeyini dəstəkləməkdə göstərdikləri prinsipial mövqeyə görə Qoşulmama Hərəkatı ölkələrinə dərin minnətdarlığını bildirdən dövlətimizin başçısı qeyd edib ki, o, xüsusilə 2020-ci və 2022-ci illərdə Qoşulmama Hərəkatı ölkələrinin BMT Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə olan birtərəfli və qərəzli bəyanatların qəbul edilməsinin qarşısını aldıqları iki hala istinad edir.

Bir sözlə, bütün göstərilənlər onu deməyə əsas verir ki, dövlət başçısının təşəbbüsləri qlobal miqyasında beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir. Bu da onu göstərir ki, son 20 ildə Azərbaycanda həyata keçirilən mühüm tədbirlər beynəlxalq birliyin Azərbaycana inamının, etimadının təzahürü, ölkəmizin və dövlətimizin başçısının qlobal miqyasda nüfuzunun göstəricisidir. Nəticədə isə, dövlət başçımızın dediyi kimi: ”Bu görüş səmərəli və nəticəyönümlü müzakirələrlə yadda qalacaqdır. Çünki Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə üzv ölkələrin qanuni maraqlarını qətiyyətlə qoruyub”.

Qeyd edək ki, Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun ”Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli” mövzusunda nazirlər görüşü işini müzakirələrlə davam etdirib

***RƏFİQƏ KAMALQIZI***

# Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatı böyük uğurlara imza atıb!

***Prezident İlham Əliyev Türkiyənin, Fələstin Dövlətinin, Özbəkistanın, İran İslam Respublikasının XİN rəhbərlərini, habelə Monteneqronun Baş nazirini qəbul edib.***











İyulun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanı qəbul edib. Hakan Fidanı Türkiyənin xarici işlər naziri təyin edilməsi münasibətilə təbrik edən Prezident İlham Əliyev ona fəaliyyətində uğurlar arzulayıb. Dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın seçkilərdən sonra Azərbaycana dövlət səfərini ölkələrimiz arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin nümunəsi kimi qiymətləndirib.

Təbrikə görə minnətdarlığını bildirən Hakan Fidan həm çalışdığı əvvəlki vəzifələrdə, həm də hazırda xarici işlər naziri kimi Azərbaycan ilə Türkiyə arasındakı qardaşlıq və dostluq münasibətlərinin inkişafını daim rəhbər tutduğunu qeyd edib, Türkiyənin Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşünə dəvət olunmasına görə təşəkkürünü bildirib.

Türkiyənin xarici işlər naziri Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə dövlətimizin başçısını təbrik edib və bununla da ölkəmizin çox önəmli prosesə rəhbərlik etdiyini vurğulayıb. Dövlətimizin başçısı Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının təsisatlanması prosesində ölkəmizin gördüyü işlər, həmçinin sədrlik prosesi barədə məlumat verib. Söhbət zamanı regional məsələlərə dair fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyev Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması, Cənubi Qafqazda davamlı sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində gedən proseslər barədə danışıb. Görüşdə Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin strateji müttəfiqlik zəminində, "bir millət, iki dövlət" prinsipi əsasında bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb, ölkələrimizin daim bir-birinin yanında olduqları qeyd edilib.

Dünən Prezident İlham Əliyev Fələstin Dövlətinin xarici işlər naziri Riad Əl-Malikini qəbul edib. Riad Əl-Maliki Azərbaycanın Fələstində diplomatik nümayəndəliyinin açılması ilə bağlı təşəkkürünü bildirdi. O, Azərbaycanın xarici işlər nazirinin Fələstinə səfərinin önəmini vurğuladı, bu addımların Azərbaycanla Fələstin arasında ikitərəfli əlaqələrin inkişafına ciddi təkan verəcəyinə əminliyini ifadə etdi.

Fələstinin xarici işlər naziri Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı. O, Azərbaycanın Fələstinə göstərdiyi daimi humanitar yardımın və dəstəyin Fələstin xalqı tərəfindən yüksək qiymətləndirildiyini vurğuladı. Riad Əl-Maliki Azərbaycanı öz torpaqlarını işğaldan azad etməsi münasibətilə təbrik etdi.

Azərbaycan Prezidenti Fələstin Dövlətinin Baş naziri Mohammed Ştayyeh ilə görüşünü məmnunluqla xatırladı. Dövlətimizin başçısı bu görüş əsnasında Fələstində Azərbaycan tərəfindən məktəbin tikilməsi layihəsi barədə müraciətin olduğunu qeyd edərək, buna müsbət münasibətin bildirildiyini və tezliklə bu layihənin icra olunacağını dedi. Dövlətimizin başçısı Azərbaycanın Fələstində diplomatik nümayəndəliyinin açılmasını müsbət addım kimi dəyərləndirdi. Söhbət zamanı beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Monteneqronun Baş naziri və xarici işlər naziri vəzifəsini icra edən Dritan Abazoviçi qəbul edib. Dritan Abazoviç Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşünə dəvətə görə təşəkkürünü bildirdi və Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı.

Söhbət zamanı Prezident İlham Əliyevin və Baş nazir Dritan Abazoviçin bu il Davosda keçirilmiş görüşü məmnunluqla xatırlandı. Görüşdə Monteneqronun Azərbaycan ilə enerji, turizm, investisiyalar və digər sahələrdə əməkdaşlığın inkişafında maraqlı olduğu qeyd edildi, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin bir-birinə dəstəyi vurğulandı.

Dünən Prezident İlham Əliyev Özbəkistan Respublikasının xarici işlər naziri Baxtiyor Saidovu qəbul edib. Baxtiyor Saidov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin əziz dostu və qardaşı Prezident İlham Əliyevə salamlarını çatdırıb.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Özbəkistan Prezidentinə çatdırmağı xahiş etdi. Baxtiyor Saidov Azərbaycanın Qoşulmama Hərəkatına müvəffəqiyyətlə sədrliyi və nazirlər görüşünün uğurla keçirilməsi münasibətilə təbriklərini ifadə etdi. O, Azərbaycan Prezidentinin Özbəkistana dövlət səfəri çərçivəsində iki ölkə başçısının müəyyənləşdirdiyi tapşırıqlara uyğun olaraq fəaliyyətin davam etdirildiyini və qarşıya qoyulmuş bütün məqsədlərin diqqətdə saxlanıldığını vurğuladı.

Prezident İlham Əliyev öz növbəsində Özbəkistana dövlət səfərini məmnunluqla xatırladı. Dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilərdə Özbəkistan tərəfindən məktəb tikintisi layihəsinin xüsusi önəm daşıdığını bildirdi, Prezident Şavkat Mirziyoyevin tezliklə Azərbaycana səfərinin gözlənildiyini qeyd etdi. Söhbət zamanı Azərbaycanın və Özbəkistanın Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı və digər beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq etdikləri diqqətə çatdırıldı, ikitərəfli gündəlikdə duran məsələlərə dair fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanı qəbul edib. İranın xarici işlər naziri onu qəbul etdiyinə görə dövlətimizin başçısına təşəkkürünü bildirdi. Hüseyn Əmir Abdullahiyan İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.

Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə Azərbaycanı təbrik edən İranın xarici işlər naziri ölkəmizin sədrliyi dövründə Hərəkatın davamlı və dinamik surətdə inkişaf etdiyini vurğuladı.

Hüseyn Əmir Abdullahiyan Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının nazirlər görüşünün açılış mərasimindəki çıxışında çox vacib məqamlara toxunduğunu deyərək bu tədbirin əhəmiyyətini qeyd etdi, onun gündəliyindəki çox vacib məsələlərin müzakirə olunduğunu vurğuladı. İranlı nazir ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin inkişafında müsbət dinamikanın olduğunu dedi, Şimal-Cənub nəqliyyat dəhlizinin inkişaf etdirilməsində Azərbaycanla İranın mühüm rol oynadığını diqqətə çatdırdı.

Azərbaycan səfirliyinə qarşı törədilmiş terror aktının İranın məhkəmə və hüquq-mühafizə orqanları tərəfindən çox ciddi şəkildə araşdırıldığını bildirən nazir Azərbaycanın Tehrandakı səfirliyinin fəaliyyətinin tezliklə bərpa olunacağına ümidvarlığını ifadə etdi. Prezident İlham Əliyev öz növbəsində Azərbaycanın İrandakı səfirliyinə qarşı törədilən terror aktında müqəssir olan şəxslərin layiqli cəzasını alacaqlarına ümidvar olduğunu bildirdi. Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatında rolundan və onun təsisatlanması istiqamətində həyata keçirdiyi işlərdən danışdı.

Söhbət zamanı iqtisadi-ticari əlaqələrin son dövrlərdə artan dinamikası məmnunluqla qeyd edildi, Şimal-Cənub nəqliyyat dəhlizinin, həmçinin bu marşrutla bərabər, Şərqi Zəngəzur iqtisadi rayonu ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında kommunikasiya bağlantılarının icrasının inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı. Hər iki ölkənin aidiyyəti nümayəndə heyətlərinin yaxın vaxtlarda görüşünün keçiriləcəyi müsbət hal kimi qeyd olundu.

# Ermənistana növbəti dərsin verilməsinə ehtiyac var!

*Hakimiyyət rəsmilərinin Azərbaycana qarşı sərsəmləmələri davam edərsə...*



Ermənistan rəhbərliyinin regionda sülhün əldə olunmaması üçün sərgilədiyi cəhdləri bu gün də davam edir və bu cəhdlərin get-gedə artması isə vəziyyətin gərginləşməsinə yol açır. Bu dəfə Ermənistan parlamentinin vitse-spikeri Ruben Rubinyanın "Azadlıq Radiosu"nun erməni dili bölməsinə verdiyi müsahibəsindəki əsassız ifadələri erməni hökumətinin ritorikasının müharibə amili üzərində kökləndiyinə işarə edir. Xüsusilə, Azərbaycanın ortaya qoyduğu danılmaz faktları inkar etməyə səy göstərən Rubinyan həmin vasitə ilə yalnız əsassız nəticələrə gəldiyini deyil, həm də sözün əsl mənasında, ənənəvi erməni siyasətinin aşkar həyasızlığını nümayiş etdirir. Bəs nədir bu çığırbağırlar?

### Faktlar nədir və hansılardır?

Məsələ ondadır ki, Ermənistan rəhbərliyi bir tərəfdən Qarabağ separatçılarına dövlət büdcəsindən pul ayırır, digər tərəfdən isə iddia edir ki, guya bu ölkənin Qarabağda silahlı qüvvələri yoxdur, üstəlik, oraya heç bir mina, silah keçirilməyib və s...

Misal üçün, ölkə parlamentinin vitse-spikeri Ruben Rubinyan iddia edib ki, sən demə, üçtərəfli Bəyanatda bu kimi qadağaların olmayacağı barədə bəndlər də yoxuymuş (?). Onun sərsəm və əsassız ifadələrinə görə, Ermənistan Qarabağa mina və silahlar keçirsəydi belə, Bəyanatda buna qarşı məhdudiyyətlər yoxuymuş (?!). Əksinə, sırf siyasi həyasızlığı vasitəsini işə salan erməni parlamentinin rəsmisi Azərbaycanı ittiham edərək sual edib ki, əgər onlar (ermənilər) "blokadadan" danışırlarsa, minaları və silahları qaz kəməri, ya da elektrik xətti ilə keçiriblər? Əskinə, bu kimi



həyasız davranışa izafi erməni siyasətinə məxsus həyasızlığın son həddidir desək, yanılmarıq. Ona görə də erməni rəsmisinin iddialarına faktlarla cavab verməliyik. Faktlar nədir və hansılardır?

**1.** Rusiya sülhməramlıları kontingentinin (RSK) müvəqqəti nəzarəti altında olan ərazilərdəki erməni silahlı qüvvələrinin təmsilçiləri bilavasitə Ermənistan vətəndaşlarıdırlar və Ermənistan silahlı qüvvələrinə məxsusdurlar. Yəni həmin silahlılar bu və ya digər hallarda Ermənistan ordusunu təmsil edirlər. Əgər belə olmasa idi onların müxtəlif pozuntuları Ermənistanın hərbi məhkəmələrində müzakirə olunmazdı.

**2.** Vaxtilə Rusiyanın Qarabağa atdığı "desantı" – erməni milyarderi Ruben Vardanyan bu ilin yanvarında Rusiyanın "Meduza" səhifəsinə müsahibəsində etiraf etdi ki, bəli, Qarabağda erməni hərbi birləşmələri var və onlar Ermənistan silahlı qüvvələrinə məxsus adamlardır.

**3.** "Qisas 2" əməliyyatından sonra öldürülmüş 2 Ermənistan hərbçisinin meyitlərinin mövcudluğu da bu faktı təsdiq etdi.

**4.** Bəyanatda isə "Azərbaycan Laçın dəhlizi ilə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinin təhlükəsizliyinə təminat verir" ifadəsində kifayət qədər məntiqlə göstərilir ki, Ermənistan Azərbaycan ərazisinə heç bir silah, mina və əsgər gətirməməlidir.

Erməni rəsmiləri bu faktları həm öz qulaqlarından, həm də cəfakeşlərinin qulaqlarından asmağı da unutmamalıdırlar...

Maraqlıdır, Ermənistan rəhbərliyi düşünür ki, Azərbaycan erməni hərbçilərinin, silah və minaların da keçməsinə icazə vermək öhdəliyini öz üzərinə götürüb? Onda başda Paşinyan olmaqla ölkə rəhbərliyi xatırlamalıdır ki, həmin iddialarda daha bir nüans var: orada yüklərin maneəsiz (!) daxil olması sözü yazılmayıb. Bu isə o deməkdir ki, Bakı istənilən vaxt Azərbaycanın suveren ərazisinə daxil olaraq bütün yükləri və bütün mülki şəxsləri yoxlaya bilər və edəcək də! Laçın yolu üzərində fəaliyyət göstərən gömrük məntəqəsi də həmin reallığı təsdiq edir. Yəni, bu yoxlamalardan sonra Azərbaycan ərazilərin sahibi kimi keçidin təhlükəsizliyini təmin etməyi öhdəsinə götürüb. Erməni rəsmiləri bu faktları həm öz qulaqlarından, həm də cəfakeşlərinin qulaqlarından asmağı da unutmamalıdırlar...

Bütün bu kimi iddialar - "kəsilən" elektrik naqilləri, qazın "bağlanması", "blokada" ilə əlaqəli söhbətlər, sadəcə olaraq, erməni tərəfinin fərziyyələridir və erməni tərəfi



həmin fərziyyələrini heç nə ilə isbatlaya bilmir. Yox, əgər erməni rəhbərliyinin əlində faktlar varsa, buyurub onları təqdim etsinlər. Edə bilirlərmi? Əlbəttə ki, yox!

### Azərbaycan bu yolda ölkənin qanunvericiliyi ilə nəzərdə tutulmuş bütün səlahiyyətlərə malikdir

Erməni vitse-spikeri guya siyasi cəhətdən çox "ağıllı" və "dərkedici şəxsiyyət" olduğunu sübut etmək üçün deyib: "9 (10) noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanatda ağ və qara rəngdə deyilir: - Laçın dəhlizi RMK-nın nəzarətində qalır. Üstəlik, əgər Dağlıq Qarabağın özündə RSK, sözün klassik mənasında, sülhməramlılıqla məşğuldursa, yəni iki münaqişə tərəfi - "Dağlıq Qarabağ" və Azərbaycan arasında dayanırsa, o zaman Laçın "dəhlizindədir" ki, bu da sadəcə yol deyil, eni 5 km olan bu əraziyə birbaşa nəzarət həyata keçirilir. Üçtərəfli Bəyanata görə, bu ərazidə nə Ermənistanın, nə də Dağlıq Qarabağın səlahiyyətləri və nəzarət funksiyaları yoxdur. Azərbaycanın da Laçın dəhlizində heç bir səlahiyyəti yoxdur, lakin onun öhdəliyi var: Laçın dəhlizi ilə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin təhlükəsizliyinə zəmanət vermək. Və təbii ki, Azərbaycan bu bəndi pozub".

Göründüyü kimi, axmaq iddiaları ilə özünü və erməni cəmiyyətini aldatmağa cəhd edən Rubinyan bunları bilməlidir:

**1.** Bəyanatın 1-ci bəndində yazılıb ki, "Azərbaycan Respublikası və Ermənistan öz mövqelərində dayanırlar".

Rubinyan "Dağlıq Qarabağı" münaqişə tərəfi kimi harada gördü? Münaqişə tərəfləri Azərbaycan və Ermənistandır! Aparılan danışıqların hər biri də bilavasitə bu ölkələr arasında mövcud olub. Ona görə də Rubinyan maraqsız və uğursuz fantaziyalarını özündə saxlaya bilər.

**2.** Ermənistan parlamentinin vitse-sikeri bir faktı da bilməlidir ki, Laçın yolu Azərbaycanın suveren ərazisidir və Azərbaycan bu yolda ölkənin qanunvericiliyi ilə nəzərdə tutulmuş bütün səlahiyyətlərə malikdir. Azərbaycan hansı addımı atırsa belə, Azərbaycan qanunvericiliyi əsasında reallaşdırılır.

Sabah Bakı bu yoldan Xankəndiyə daxil ola bilər və daxil də olacaq. Heç bir qüvvə Azərbaycana sual edə bilməyəcək ki, nəyə görə bu yolda məntəqə qurdun və s.? Ona görə də bütövlükdə erməni rəhbərliyi dərk etməlidir ki, əslində, yerdə qalan pozuntuların da aradan qaldırılması yönündə Azərbaycan öz qərarlarını verəcək!

Rubinyan, Paşinyan, Simonyan və daha kimlər və kimlər reallığa qalanda şükür etməlidirlər ki, 2020-ci ilin noyabrından bu yana öz qazdıqları qəbirlərinə daxil olmayıblar. Fəqət, gec-tez hər şey birdən onlar üçün məhv ola bilər, xüsusilə, belə sərsəm iddialarla bəyanatlar verməyə davam etsələr...

***Afət Tahirqızı***

# "Torpaq bizimdir, lakin ölkəmizlə bağlı qərarlar Parisdə qəbul olunur"

Azərbaycana ilk dəfədir səfər edirəm. Burada ilk günlərim olmasına baxmayaraq, əminliklə deyə bilərəm ki, Bakı şəhəri Parislə müqayisədə çox təmiz, modern və gözəl şəhərdir. Qoşulmama Hərəkatının nazirlər görüşü Azərbaycanda çox gözəl təşkil olunub. Azərbaycan Prezidenti İlham Əliyev çıxışında Fransanın müstəmləkə siyasəti ilə bağlı danışdı, bu ölkənin müstəmləkələri ilə bağlı fikirlər söylədi. Bütün bunlar həqiqəti əks etdirir və biz də bunu təsdiqləyirik. Bizim ölkəmiz də Azərbaycan, Braziliya, Venesuela kimi neft və qaz ehtiyatına malikdir. Bütün bunlara baxmayaraq, Fransada olan qanunlara görə ölkəmiz təbii sərvətlərindən istifadə edə bilmir, əksinə, fransızlar onlardan yararlanır. SİA-nın AZƏRTAC-dan əldə etdiyi məlumata görə, bu sözləri Fransa Milli Assambleyasının Fransız Qvianasından olan deputatı Jan-Viktor Kastor söyləyib.

O qeyd edib ki, ölkəsi hər bir sahədə Fransa tərəfindən idarə olunur. "Torpaq bizimdir, lakin ölkəmizlə bağlı qərarlar Parisdə qəbul olunur. Fransanın Qvianada rəsmi nümayəndəsi var və bütün qərarlar onun tərəfindən verilir. Biz ölkəmizdə kollec, məktəb, bağça tikməyimiz üçün də Parisdən rəsmi olaraq icazə almalıyıq. Onların icazəsi olmadan təəssüf ki, heç nə edə bilmirik".



Jan-Viktor Kastor diqqətə çatdırıb ki, hər hansı bir qərara etiraz bildirilərkən Fransa Qviananın qarşısını müxtəlif yollarla kəsir. "Onlar bizi əsasən iqtisadi cəhətdən çökdürürlər. 2017-2022-ci illərdə Fransanın bu amansız siyasətinə görə Fransız Qvianasında yoxsul təbəqə 30 faizdən 54 faizədək artıb. İllər keçdikcə Fransa bizi hər bir sahədə daha da zəiflədir. Fransada son seçkilərdə Emannuel Makronun prezident seçilməsindən sonra hər kəs bilirdi ki, bu ölkə tənəzzülə doğru gedir. Makronun islahatları müsbət effekt vermədi. Bu gün Fransaya getsəniz görərsiniz ki, tələbələr, kasıb ailələr aşağı büdcəli yemək almaq üçün növbələr yaradır, uzun sıralar əmələ gətirirlər. Səhiyyə, təhsil və digər sahələrdə hər şey mənfiyə doğru gedir. Hazırda insanlar Parisdə üsyan edirlər. Fransa hazırda vaxtilə yürütdüyü müstəmləkə siyasətinin cəzasını çəkir. Bu gün orada baş verən hadisələr Fransa üçün "əkdiyini biçmə zamanı" olduğunu göstərir", - deyə o qeyd edib.

# “Qoşulmama Hərəkatı dünyada nüfuzlu beynəlxalq təşkilatlardan biri kimi tanınır”




*Bakıda Qoşulmama Hərəkatının (QH) Koordinasiya Şurasının Nazirlər Toplantısı keçirilir. Nazirlərin Toplantısında Hərəkatın gündəliyi ilə bağlı çoxsaylı əlavə tədbirlərlə yanaşı, Yekun Sənədlərin, o cümlədən, Bakı Bəyannaməsinin qəbulu məsələsinə baxılacaq. Bəs bu toplantı Bakı üçün nə vəd edir? SİA mövzu ilə bağlı sorğu keçirib.*

## Qoşulmama Hərəkatının Bakıdakı iclasına ekspertlərin BAXIŞI



**Milli Məclisin deputatı Jalə Əliyeva:** “Bakıda növbəti dəfə Qoşulmama Hərəkatının Koordinasiya Şurasının Nazirlər Toplantısı keçirilir. Nazirlərin Toplantısında Hərəkatın gündəliyi ilə bağlı çoxsaylı tədbirlərlə yanaşı, yekun sənədlərin qəbulu gözlənilir. Ümumiyyətlə, Qoşulmama Hərəkatı yarandığı gündən etibarən son dövrlərdə daha geniş perspektivdə inkişaf edib. Azərbaycanın sədrliyi dövründə Hərəkatın nüfuzu beynəlxalq aləmdə daha da artıb. Bu Hərəkatda iştirak etmək istəyən ölkələrin sayı getdikcə çoxalır və ildən-ilə onun əhatə etdiyi coğrafiya da genişlənir. Düşünürəm ki, bu Azərbaycanın sədrliyi dövrü və bu Hərəkata yeni can qatan ölkə başçısı İlham Əliyevin birbaşa səyləri nəticəsində mümkün olub. Qoşulmama Hərəkatı bu gün dünyanın nüfuzlu beynəlxalq təşkilatlarından biri kimi fəaliyyət göstərir. Azərbaycanın bu Hərəkata ard-arda ev sahibliyi etməsi dövlətimizin beynəlxalq nüfuzunun artması mənasına gəlir. Bakıda növbəti dəfə keçirilən Nazirlərin Toplantısı da hər baxımdan əhəmiyyətli olacaq. Toplantıda müzakirə olunan məsələlər bütün bəşəriyyət, o cümlədən, bəşəriyyətin bir parçası olan ölkəmiz üçün çox mühüm nüanslardır”.



**Politoloq Cümşüd Nuriyev:** “Qoşulmama Hərəkatı dünyada BMT-dən sonra ikinci ən böyük təşkilatdır. Dünyanın 120 dövləti bu təşkilatda toplanıb və bu təşkilatın əsas məqsədi bilavasitə dünyada sülh prosesini yaratmaq, dayanıqlı stabilliyə nail olmaq və ölkələr arasında iqtisadi, siyasi, mədəni münasibətləri formalaşdırmaq, yenidən qurmaqdır. Azərbaycan da buna sədrlik etməyə başlayandan bəri sədrlik müddəti 1 il də artırılıb. 120 ölkənin nazirlərinin Bakıda toplanmasının Azərbaycan üçün çox böyük siyasi əhəmiyyəti var. İlk olaraq, Azərbaycan 2020-ci il səfərindən sonra dünyada çox sürətlə özünə müsbət imic qazanır və gələnlər də Azərbaycanın yürütdüyü siyasətlə, şəhərimizlə, mədəniyyətimizlə daha yaxından tanış olur. Bütün bunların hamısı Azərbaycanın dünyanın müxtəlif ölkələrinə təbliğatına əsas verir. İkincisi, Qoşulmama Hərəkatı ilə istər pandemiya dövründə, istərsə də Azərbaycanın yürütdüyü siyasətlə Azərbaycanın tutduğu mövqe kifayət qədər müsbətdir və bu məsələlərdə Azərbaycan öz mövqeyini dünyaya tanıtmaq üçün bu da əsasdır. Bildiyimiz kimi, Azərbaycanla Ermənistan arasında sülh sazişi hələ imzalanmayıb. Fransa, İran, Rusiya birmənalı olaraq bu sazişin imzalanmasının əleyhinədir. İran da Qoşulmama Hərəkatının üzvüdür. Azərbaycan burada Bakı Bəyənnaməsinə qəbul olunanda Azərbaycan-Ermənistan arasında sülh sazişinin bağlanması məsələsinin salınma ehtimalı çox yüksəkdir və yəqin ki, salınacaq. Bakı Bəyənnaməsində Bakı adının bəyənnamənin önündə getməsi çox böyük bir məsələdir. İstər siyasi, istərsə də tarix üçün bunun böyük əhəmiuyyəti var. Çünki bu adlar bütün dünyanın ğlkə və dillərində səslənəcəkdir. Bakının Azərbaycanın paytaxtı olduğunu bilməyənlər də artıq biləcək. Bu, Azərbaycanın müsbət imicinin formalaşması üçün çox vacibdir. Təbii ki, yekun sənədlərdə Azərbaycanın fəaliyyəti, sədrliyi müsbət dəyərləndiriləcək. Bu, belə olmasaydı əlavə bir il də Azərbaycanın sədrliyi üçün yekdilliklə qərar qəbul olunmazdı. Bu toplantının başqa bir əhəmiyyəti də ondan ibarətdir ki, Azərbaycanın yürütdüyü xarici siyasətin nə qədər önəmli olduğu gündəmə gətirilir. Eyni zamanda Azərbaycan Prezidentinin bir siyasi lider kimi dünyada tanınmasına gətirib çıxaracaq. Prezident İlham Əliyev kifayət qədər tanınır, lakin müsbət imicin formalaşması üçün əlavə çalarlar da lazımdır. Burada ölkələrin xarici işlər nazirləri dövlətlərin adından danışa bilirlər, onlar isə Azərbaycanla bağlı fikirləri öz ölkələrində müsbət mənada gündəmə gətirəcəklər. Qoşulmama Hərəkatının Azərbaycana verdiyi siyasi, iqtisadi, mədəni töhfələr çoxdur”



**Milli Məclisin deputatı Anar İsgəndərov:** “5 və 6 iyul tarixlərində Bakı şəhərində Qoşulmama Hərəkatının Koordinasiya Şurasının Nazirlər Toplantısı keçirilir. Hər şeydən öncə qeyd etmək lazımdır ki, Qoşulmama Hərəkatı hərbi blok üzvü olmayan dövlətlərin arzu və istəklərindən doğurdu. Bu dövlətlər nəhayət ilk dəfə İndoneziyanın Cakarta şəhərində Qoşulmama Hərəkatının yaranması üçün səy göstərdilər. Bu fikir 1955-ci ildə ortalığa atıldı. 1961-ci ildə artıq bu təşkilat yaradıldı. Hazırda bu təşkilata 120 dövlət üzvdür. Eyni zamanda, 17 ölkənin və 10 beynəlxalq təşkilatın üzvləri də müşahidəçi qismində burada iştirak edirlər. Azərbaycan bu təşkilata 2011-ci ildə qoşulub. Dövlətimiz bu təşkilata daxil olduqdan sonra Azərbaycanın ərazi bütövlüyü məsələsi, Ermənistanın ölkəmizə qarşı təcavüzkarlıq siyasəti, ATƏT-in Minsk Qrupunun bu məsələdə olan ədalətsizliyi və s. Hərəkatın üzvləri tərəfindən dəfələrlə səslendirilib. Qoşulmama Hərəkatının Azərbaycan üçün ən böyük önəmi ondan ibarətdir ki, ATƏT-in Minsk Qrupu Ermənistanın Azərbaycana təcavüzü məsələsini düşmənin xeyrinə həll etmək istəyərkən Hərəkat üzvləri onların bu arzusunu üreyində qoydu. 2019-cu ildən Qoşulmama Hərəkatına Azərbaycan rəhbərlik edir. Təşkilata üzv dövlətlərin arzusu idi ki, 2023-cü ildə də Hərəkata rəhbərliyi Azərbaycan həyata keçirsin. Dövlət başçısı İlham Əliyev də bu vəzifəni uğurla yerinə yetirir.

Bugünkü gündə Qoşulmama Hərəkatı Azərbaycanın 44 günlük müharibəni haqlı olaraq ədalətli hesab edir. Çox təəssüf ki, dünənə qədər ATƏT-in Minsk Qrupu üzvləri kimi Azərbaycanın əleyhinə olan bu dövlətlər bu gün Ermənistandan daha çox erməniləşib. Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və Zəngəzur dəhlizinin açılmasını nəinki istəmir, hətta buna qarşı əllərindən gələni edirlər. Buna görə də bu gün Bakıda keçirilən toplantı onu göstərir ki, Qoşulmama Hərəkatına üzv olan dövlətlər Azərbaycanın yanındadır və onun haqqını müdafiə edir. Əminəm ki, Bakı Bəyannaməsində də bu məsələlər öz əksini tapacaq. Azərbaycanın ərazisini bərpa etmək uğrunda müharibəsi bitmiş olsa da, bu gün ərazi bütövlüyümüz pozulmaqda davam edir. Amma Azərbaycan yenə də bütün pozucu addımlara qarşı cavab verməyə hazırdır. Qoşulmama Hərəkatına üzv olan dövlətlər də Azərbaycanın xarici siyasətini dəstəkləyir”.



**Politoloq Ramiz Alıyev:** “Azərbaycan Qoşulmama Hərəkatına sədrlik etdiyi 4 il ərzində daim beynəlxalq hüququ və ədaləti müdafiə edib. Hərəkata üzvlükdən qısa müddət sonra Azərbaycanın quruma sədrlik etməsi üzv dövlətlərin ölkəmizə olan etimadının parlaq nümunəsi idi. Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın fəal surətdə çoxtərəfli diplomatiyanı təşviq etdi. Quruma sədrliyimiz koronavirus (COVID-19) pandemiyası dövrünə təsadüf etsə də, birlik çevik və səmərəli fəaliyyətini qoruyub saxlaya bildi. Sözsüz ki, hərəkatın gücləməsində Azərbaycan dövlətinin və Prezident İlham Əliyevin təşəbbüskarlığı, peşəkarlığı və siyasi iradəsi mühüm rol oynadı. Pandemiyanın ağılasığmaz fəsadları qarşısında dünya ölkələrinin əksəriyyəti beynəlxalq aləmdən sanki təcrid olundular. Belə bir dövrdə Azərbaycan Prezidenti liderlik rolunu üzərinə götürdü və qlobal bəlanın həlli üçün təklif və təşəbbüslərlə çıxış etdi. Qoşulmama Hərəkatının sədri İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ilin mayında QH-nin COVID-19 ilə mübarizəyə həsr edilən onlayn sammiti keçirildi. Bu sammitdə Prezident İlham Əliyev təklif etdi ki, BMT Baş Assambleyası pandemiya ilə mübarizəyə həsr edilən xüsusi sessiyası keçirilsin. Bu təklif birmənalı şəkildə dəstəkləndi. Cənab Prezident həmçinin “peyvənd millətçiliyi”nə qarşı fəal mübarizə apardı. Azərbaycanın təşəbbüsü ilə həm BMT Baş Assambleyasında, həm də BMT-nin İnsan Hüquqları Şurasında vaksinlərin ədalətli bölüşdürülməsinə dair qətnamələr qəbul edildi.

Sədrliyimiz dönəmində Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi və Gənclər Təşkilatı təsis olundu. Ötən il iyunun 30-da Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin “Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi” mövzusunda Bakıda konfransı keçirildi. Ötən ilin iyulunda Azərbaycanda keçirilən Qoşulmama Hərəkatı Gənclər Sammiti çərçivəsində Hərəkatın 61 illik tarixində ilk dəfə olaraq Şuşada Qoşulmama Hərəkatına üzv ölkələrin gənclərini özündə birləşdirən Gənclər Təşkilatı təsis edildi. Qoşulmama Hərəkatına sədrlik dövründə Azərbaycana Ermənistanın təcavüzünə qarşı mübarizədə güclü dəstək qazandı. Qarabağın Azərbaycan ərazisi olduğu, ərazilərimizin Ermənistan tərəfindən işğalı nüfuzlu təşkilat və ölkələr tərəfindən etiraf olundu. Vətən müharibəsi dövründə BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin hazırladıqları bəyanat layihəsi geri götürüldü. Həmçinin Hərəkata üzv dövlətlərin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı irəli sürülmüş qərəzli təşəbbüslərin müzakirəsinin və qəbulunun qarşısı alındı. Bu gün dünyada sülh və təhlükəsizlik sisteminin kövrək olduğunu, “Soyuq müharibə”nin mahiyyətcə yeni fazaya keçdiyini nəzərə alaraq Qoşulmama Hərəkatının üzərinə böyük missiya və məsuliyyət düşür.””

***Ləman Sərraf***

# Zəlzələ ilə bağlı BİLMƏLİ OLDUQLARIMIZ



Bazar ertəsi gecə yerli vaxtla saat 00:01 radələrində Xəzər dənizində olan zəlzələnin 5,5 bal gücündə olduğu Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin məlumatında da öz təsdiqini tapıb. Təbii proses olan və Bakıda, eləcə də Azərbaycanın bir sıra rayonlarında hiss olunan zəlzələ səbəbindən paytaxtın bir çox yerlərində insanların təşviş keçirmələri və onların öz evlərini tərk etmələri əlbəttə ki, başadüşüləndir. Ələlxüsus da, bu ilin fevral ayında Türkiyədə minlərlə insanın ölümünə səbəb olan zəlzələdən, bu zəlzələnin yaşatdığı həyəcandan sonra paytaxt sakinlərinin öz evlərini tərk edərək açıq yerlərə üz tutmaları da anlaşılandır. Anlaşılmayan isə istər sosial şəbəkələrdə, istərsə də real həyatda ölkənin seysmik vəziyyəti, növbəti zəlzələnin nə zaman və neçə bal gücündə olacağı barədə proqnozların verilməsi, əksər hallarda məlumatsız insanlar arasında müzakirələrin aparılmasıdır. Belə məlum olur ki, zəlzələ barəsində dolğun məlumatlara sahib olmaq zərurəti var və insanlar bu barədə məlumatlanmalı, maarifləndirilməlidirlər.

Diqqətçəkən ən vacib məqam insanlar arasında, daha dəqiq desək, paytaxt sakinləri arasında çaxnaşmanın olmasıdır. Özü də nəzərə almaq lazımdır ki, bu çox



təhlükəli bir məqam hesab olunur, çünki burada həmin çaxnaşmanın hansı məqsədlərlə yaradılması da önəmli şərtdir. Nəzərə çatdıraq ki, məhz həmin çaxnaşmanın yaradılmasında bir neçə maraqlı tərəf ola bilər. Məsələn, hadisə baş verən ölkənin ictimai rəyinə infomüdaxilənin edilməsi kimi bir maraq hər zaman öz aktuallığını qoruyur. Eyni zamanda, cəmiyyətdə qorxu hissinin yaradılması və bu fonda da dövlətə inamın itməsinə çalışanların olması da nəzərə alınmalıdır. Təbii ki, diqqət mərkəzinə düşmək, diqqət çəkmək, maraq oyatmaq istəyi ilə nəticəni hesablamadan saxta məlumat tirajlayanlar da az deyil. Bu baxımdan düzgün nəticə çıxarmaq, doğru davranmaq üçün təkcə cəmiyyətdə baş verən yox, elə təbiət hadisələri ilə əlaqədar da ayıq-sayıq və məlumatlı olmaq lazım gəlir. Əks halda, sosial şəbəkələrdə verilən proqnozların, aparılan müzakirələrin kimlərsə təsiri altına düşə bilərlər və bu da çaxnaşmaya səbəb olar. Amma zəlzələnin nə zaman, hansı bal gücündə baş verəcəyini öncədən müəyyənləşdirməyin, təyin etməyin mümkünsüzlüyünü bilən vətəndaşlar heç vaxt belə əsassız proqnozlara, mənasız müzakirələrə məhəl qoymazlar.

Elm, bilik, məlumat insana xidmət edir və cəmiyyətin qorxusuz, həyəcandan, çaxnaşmadan uzaq və rahat yaşaması üçün əvəzsizdir. Bu baxımdan ölkəmizdə seysmik vəziyyətin necə olduğu, zəlzələnin necə baş verdiyi barədə bilgiyə sahib olmaq olduqca vacibdir. Zəlzələlərin necə baş verdiyini təsəvvür etmək, bilmək üçün isə ilk növbədə onun səbəbi barədə məlumatlı olmaq gərəkir. Məhz elə bu mənada da məlumat üçün diqqətə çatdıraq ki, yerin alt qatlarında Ərəbistan, Avrasiya, Afrika və digər bu kimi adlarla ifadə olunan və böyük ərazini əhatə edən hərəkətli səthlər, yəni plitələr mövcuddur və mütəxəssislərin fikrincə, məhz həmin plitələr hərəkət edərkən bir-birinə davam gətirə bilmədikləri zaman qırılmalar olur, hansı ki, bu səbəbdən də zəlzələ baş verir. Azərbaycan seysmoloji baxımdan Ərəbistan və Avrasiya tektonik plitələrinin kəsişməsində yerləşdiyi üçün "zəlzələ bölgəsi" hesab edilir və ölkəmizin ərazisində tektonik hadisələrin, təkanların olması mümkün haldır, lakin öncədən onun vaxtının, amplitudunun hesablanması, bununla bağlı öncədən proqnozların verilməsi mümkünsüzdür.





Qeyd etmək lazımdır ki, əslində hər gün zəlzələ baş verir, lakin məsələ burasındadır ki, onlardan çoxu kiçik təkanlar olduğu üçün heç hiss edilmir. Dünyanın hər yerində olduğu kimi, Azərbaycanda da zəlzələ məhz tektonik plitə və blokların hərəkəti nəticəsində ortaya çıxır. Sözsüz ki, həmin tektonik plitə və blokların hərəkəti ilə yanaşı antropoloji amillər də, daha dəqiq desək, insanların fəaliyyəti də, məsələn, neft-qaz yataqlarının dərin işlənməsi, neft quyularının qazılması, eləcə də qrunt sularının və su anbarlarının qeyri-peşəkar səviyyədə işlənməsi də zəlzələ riskləri yaradır. Ölkəmizdə ən böyük potensiala malik zəlzələ ocaqlarının hansı ərazilər olmasını, Azərbaycanda seysmik cəhətdən 5 aktiv zona olduğunu bilmək də vacibdir. Bu baxımdan diqqətə çatdırmaq yerinə düşərdi ki, Böyük Qafqaz dağlarının cənub yamacı, yəni Şamaxı, İsmayıllı, Qəbələ, Şəki, Zaqatala zonası, Kiçik Qafqaz dağlarının şimal yamacı, yəni Qarabağ, Mingəçevir, Gəncə, Şəmkir zonası, Talış dağları ərazisi, Quba-Xaçmaz bölgəsi, Xəzər dənizi potensial zəlzələ ocaqları kimi səciyyələndirilir.

Seysmik aktivliyə nəzarət olunması və ümumiyyətlə, zəlzələ barədə öncədən proqnoz verməyin mümkün olub-olmaması hələ də insanları düşündürür. İlk növbədə diqqətə çatdırmaq yerinə düşərdi ki, texnologiyanın inkişafına baxmayaraq, hələlik tektonik plitə və blokların hərəkətinə tam nəzarət etmək qətiyyən mümkün deyil. Doğrudur, GPS stansiyalar vasitəsi ilə tektonik plitə və blokların hərəkət istiqamətini və illər boyu yaratdığı dəyişikləri müşahidə edərək, riskli əraziləri müəyyənləşdirmək mümkündür və ölkəmizdə hazırda əsas tektonik blokları müşahidə edən 32 GPS stansiyası var. Lakin bu o demək deyil ki, zəlzələnin nə vaxt baş verəcəyi, hansı bal gücündə, hansı amplitudada olacağı barədə məlumat vermək mümkündür. Bütün bunların fonunda da öncə qeyd etdiyimiz kimi, hansısa bir sosial şəbəkə istifadəçisinin zəlzələnin dəqiq saatı və dəqiqəsi, eləcə də hansı amplitudada, neçə bal gücündə olacağı barədə proqnoz verməsi sözsüz ki, olduqca gülünc görünür. Sadalanan məlumatlara sahib olan insanların isə həmin proqnozlara əhəmiyyət verməyəcəyi də bəllidir və bu səbəbdən də qeyd etdik ki, zəlzələ barəsində dolğun məlumata sahib olmaq zərurəti var və ancaq bu barədə məlumatlılıq məhz öncə qeyd etdiyimiz həmin o çaxnaşma təhlükəsinin olmasının qarşısını ala bilər.

Bir daha təkrarən qeyd edirik ki, müasir texnologiya blokların hərəkətini, seysmik aktivliyi, qırılma xətlərini tədqiq etməyə imkan versə də, hələlik zəlzələnin baş verəcəyi tarixi və zəlzələnin hansı bal gücündə olacağını əvvəlcədən müəyyən etmək qətiyyən mümkün deyil. Maraqlıdır, bəs tarixini və gücünü bilmədiyimiz zəlzələyə biz necə hazırlaşmalıyıq? Zəlzələ barədə bilmədiyimiz daha nələr var? İlk növbədə onu bilməliyik ki, zəlzələnin baş verəcəyi vaxtı müəyyənləşdirmək mümkün olmasa da, onun dağıdıcı təsirini azaltmaq imkanları var və bunlar nəzərə alınmalıdır. Məsələn, tikinti prosesində mühəndis işləri kimi struktur yanaşma ilə yanaşı, maarifləndirmə məsələlərində qeyri-struktur həll variantı da nəzərdən qaçmamalıdır. Struktur yanaşmasına misal olaraq, yeni inşa edilən binalar arasında məsafənin saxlanılması, tikinti ərazisinin düzgün seçilməsi, hazır binalarda mənzil sahəsinin qanunsuz artırılmaması göstərilə bilər. Bütün bunlar nəzərə alındığı təqdirdə, struktur yanaşmasına məhəl qoyulduğu, əməl edildiyi halda zəlzələnin mənfi təsirlərini azaltmaq, hətta minimuma endirmək mümkündür.

Onu da təəssüflə diqqətə çatdıraq ki, bir çox bina və ictimai iyaişə obyektlərinin infrastruktur quruluşunda da çatışmamazlıqla qarşılaşmalı oluruq. Məsələn pilləkənlərdə əlillər üçün pandusun qoyulmaması heç də nəzərdən qaçacaq məqam deyil və çox ciddi bir çatışmazlıqdır. Məhz əlillər üçün nəzərdə tutulan həmin o pandusun olmaması zəlzələ zamanı çevik evakuasiyanı ləngidən səbəblərdən sayılır. Zəlzələ zamanı insanların evakuasiyasının nə dəqəcə vacib olduğu isə zənnimizcə heç kim üçün müəmmalı olmaz. Çünki tektonik hərəkətlər səbəbindən titrəməkdə və aşmaq, dağılmaq təhlükəsi altında olan binaların sakinlərinin evakuasiyanın nə qədər çevik həyata keçirilməsinin vacibliyini dərk etmək böyük bir ağıl sahibi olmaq tələb etmir.

Xüsusilə diqqətə atdırmaq lazımdır ki, qeyri-struktur məsələləri də nəzərdən yayınmamalıdır. Zəlzələ baş verdiyi zaman necə davranmaq lazım olduğu barədə istər məktəblərdə, təhsil ocaqlarında, istərsə də iş yerlərində insanlara nəzəri biliklər verilməlidir. Zəlzələ ilə bağlı praktiki həyəcan məşqlərinin keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu, ələlxüsus insanların zəlzələ zamanı davranış vərdişlərinə öyrədilməsi deməkdir. Məsələn, zəlzələ baş verdiyi zaman panikaya düşməmək, mənzilin hansı hissəsində daldalanmaq, yaxud evakuasiya mümkün olduğu təqdirdə hansı üsullara üstünlük vermək barədə məlumatlı olmaq çox vacib məsələdir. Əks halda, yəni məlumatsızlıq təbii proses olan zəlzələnin təbii fəlakətə çevrilməsinə gətirib çıxarır. Belə məlumatsızlıqdan isə həm düşünülmüş, həm də düşünülmədən istifadə edənlər də olur və əfsus ki, bu hal vəziyyəti bir qədər də qəlizləşdirir.

*İnam Hacıyev*

# Sirli Şərq aləmi - “Azərbaycanın İsveçrəsi!”



***Reallıqlar göstərir ki, müasir dövrümüzdə Azərbaycanın turizm ölkəsinə çevirməsi və dünya arenasında öz sözünü deməsi üçün böyük potensialı vardır. Zəngin təbii sərvətləri, qədim tarixi və memarlıq abidələri, özünəməxsus mentaliteti, əlverişli ictimai coğrafi mövqeyi, Xəzərin sahil zonaları turizmin inkişafında xüsusi əhəmiyyət kəsb edir. Təbii ki, turizm insanların səyahətlərinin təşkilinə, onların mənəvi rahatlığına xidmət etməklə bərabər, maarifləndirmək, dünyagörüşünün inkişafı baxımından əhəmiyyət kəsb edən bir sahədir. Bütün bunlarla yanaşı, turizm milli maraqların və iqtisadi inkişafın əsas istiqamətlərindən biridir.***

Kəlbəcərin isti suyu, Şuşanın, Laçının sərin bulaqları və əzəmətli dağları və meşələri turizm səfərlərinə gələn xarici ölkə vətəndaşlarına ölkəmizin tarixi və mədəniyyəti, onun mənəvi dəyərləri haqqında geniş məlumatların çatdırılması Azərbaycanın dünya ölkələrinə tanıdılması baxımından diqqətəlayiqdir. Bütün bu reallıqları nəzərə alaraq Azərbaycan turizmi sistemli şəkildə inkişaf etdirilir. Azərbaycana gələn hər kəs ölkəmizin tarixini, coğrafi mövqeyini görür. Avropa və Asiya qovşağında yerləşən Azərbaycanın iqlimi, rəngarəng təbii-coğrafi quruluşu bütün il boyu xaricdən turist qəbul etmək imkanına malikdir. Ölkəmizin ayrı-ayrı bölgələrində nadir memarlıq abidələri vardır. Qobustan qaya təsvirlərini dünya miqyasında görmək istəyən çoxlu insanlar vardır. Qədim insan məskənlərini görmək, onlarla tanış olmaq hamı üçün maraqlıdır. Əlbəttə ki, Azərbaycanda turizmin maddi-texniki bazasının möhkəmləndirilməsi, turizmin inkişafına dair dövlət proqramlarının icrasının məntiqi nəticəsi olaraq Azərbaycan turizm sahəsində yeni bir mərhələyə qədəm qoymuşdur. Və bu sahədə dövlətin apardığı siyasət turizmin inkişafına güclü təkan göstərir. Azərbaycan turizm sektoru sürətlə inkişaf etməkdədir. İnşa olunan otellər, yüksək standartlara uyğun xidmətin göstərilməsi





diqqətdədir. Bu baxımdan turizm-ekskursiya işinin təşkilində bələdçilərin, bələdçi-tərcüməçilərin rolunu ayrıca qeyd etmək lazımdır. Azərbaycanda turizm imkanlarının genişləndirilməsi, yeni turizm marşrutlarının açılması, qış turizminin inkişaf etdirilməsi ölkəmizdə turizmin inkişafı üçün əlverişli şəraitin olduğunu göstərir.

Xüsusi olaraq vurğulayaq ki, turizm ölkəmizin iqtisadi inkişafında böyük perspektivlər açmasına da real zəmin yaradır. Bu məsələyə kompleks şəkildə yanaşan Azərbaycan Prezidenti İlham Əliyevin fərman və sərəncamlarına əsasən, ölkəmizdə turizm sənayesi həm daxili, həm də xarici qonaqları qəbul etmək üçün ildən-ilə inkişaf edir. Qeyd edək ki, turizm iqtisadiyyatımızın əlverişli hissəsi olmaqla xırda və orta sahibkarlıq üçün də möhkəm baza yaradır, rayonda turizmin inkişafı yeni iş yerlərinin açılmasına kömək edir, regionun infrastrukturun formalaşdırılması üçün əlverişli şərait yaranır. Bütün bunlar, əlbəttə, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Proqramının və yoxsulluğun aradan qaldırılması Proqramının əsas müddəalarına cavab verir.

Azərbaycanın belə gözəl məkanları sırasında Qəbələnin öz yeri və payı var. Bu diyarın təbiəti, uca dağları, yaşıl meşələri, təmiz havası, çayları, gölləri, şəlalələri, mənzərəli yerləri həqiqətən də istirahət üçün ən əlverişli məkanlar sırasındadır. Nadir təbii iqlim şəraiti, mineral bulaqları, tarixi İpək Yolunun üstündə yerləşən, qədim Qafqaz Albaniyasının paytaxtı olan Qəbələ tarixi və müasirliyi özündə birləşdirir. Bu yerlərin təbii gözəlliyini yüksək qiymətləndirən Ümumilli Lider Heydər Əliyev Qəbələni ”Azərbaycanın İsveçirəsi” adlandırıb. Qəbələnin təbii sərvətləri sistemində onun mineral suları sırasında olan - mineral bulağı olan Qəmərvan kəndindən 5 km şimalda, Bum çayı dərəsində, 1388 metr hündürlükdə səthə çıxan termal-mineral sudur. Bulaq kükürdlü və dəmirli birləşmələrlə zəngindir. Suyunun kimyəvi və fiziki xassələrinə, müalicəvi əhəmiyyətinə görə Qəmərvan mineral bulağı Qərbi Avropada məşhur olan Kuldur mineral suyu ilə analoq təşkil edir. Xatırladaq ki, Odlar diyarı kimi səciyyələndirilən ölkəmizdə bu sahənin tərəqqisi üçün geniş potensial vardır. Ölkəmizin tarixi mədəniyyət abidələri var. Şəki Xan Sarayı, Nuhun qəbri, Naxçıvan diyarı, yerli Maçi-Piçku və ya Qubanın Xınalıq kəndi, Qəbələ üzüm bağları və Talış dağlarını da qeyd etməliyik. Hər bir yer haqqında maraqlı məlumatların bölüşdürüldüyü məqalə latış turistləri üçün çox maraqlı ola bilər.

## QAFQAZ MEŞƏLƏRİNİN AYRILMAZ TƏRKİB HİSSƏSİ

Bitki örtüyünün zənginliyinə və növ tərkibinin müxtəlifliyinə görə seçilən Qafqaz meşələrinin ayrılmaz tərkib hissəsi olan Qəbələ rayonunun meşə örtüyü füsunkarlığı, əl-əlvanlığına və heyrətamizliyinə görə diqqəti cəlb edir. Gur yağan leysan yağışlar, isti hava şəraiti bu ərazidə həmişəyaşıl sıx meşə örtüyünün inkişafına səbəbdir. Qəbələnin dağ və düzən meşələri endemik və relikt bitkilərlə, meyvə və giləmeyvə ağac və kol bitkiləri ilə zəngindir. Azərbaycan təbiətinin yeganə təbii abidəsi olan rayonun Həmzəli kəndindəki Qaracöhrə ağaclarının (yaşı 250-300 ildən çox) əmələ gətirdiyi sıx meşəlik nəinki ölkəmizin, eləcə də, onun hüdudlarından çox-çox uzaqlarda yaşayan alim və tədqiqatçının diqqətini özünə cəlb etmişdir. Burada qarağat, yasəmən, çaytikanı, şabalıd və cökə çiçəkləri, yaylaqlarda, çəmən və düzlərdə yayılmış kəkotu, qaraqınıq, sarıçöp, astraqal, baldırqan təbii şəkildə yayılan qızılgül və s. çiçəkli ot bitkiləri arıçılığın inkişafı və xalq təbabəti üçün geniş imkanlar yardır.

1993-cü ildə rayonun Vəndam, Dəmiraparan, Həmzəli, Bum və Qaraçay çaylarının hövzələrində, həmçinin Əlvan (Alban) dərəsi ərazisində Qəbələ dövlət təbiət yasaqlığı yaradılmışdır. Qeyd olunan yasaqlıqda düzən və dağ meşə lantşaftının müxtəlif ağac və kol bitkiləri, eləcə də nəsli kəsilmək təhlükəsi olan dağ kəli, qarapaça, cüyür, ayı, qaban, vaşaq və s. nadir heyvanlar mühafizə olunur.

Azərbaycanın ən gözəl məkanlarından biri olan Qəbələ həm də çoxlu sayda tarixi abidələri, maddi-mədəniyyət nümunələri ilə məşhurdur.



Bu tarixi abidələr Qəbələnin tarixinin min illər bundan əvvəllərə gedib çıxdığını göstərir. Bu füsunkar yurd yerinin qədim tarixi, adət-ənənələri, xalq sənəti nümunələri çox zəngindir. Şanlı keçmişə malik və yüz illər boyu Qafqaz Albaniyasının paytaxtı olmuş Qəbələnin hansı daşını tərpətsən, haraya ayaq bassan orada min illər bundan əvvəlki tariximizin izlərini görmək olar. Buranın hər bir daşından əsrlərin səsi eşidilir. Təbii ki, bu məkanda tarix və mədəniyyət abidələrinin say baxımdan çox olması turistlərin axınında önəmli rol oynayır. Əmili kəndində IV-VIII əsrlərə aid alban məbədi, Bum kəndində XIX əsrə aid məscid, Bayramkoxa kəndində IX-XIV əsrlərə aid Ustacan qalası, Şəfili kəndində XVII əsrə aid məqbərə, Həmzəli kəndində XVI əsrə aid Şıxbaba piri, Komrad dağının zirvəsindəki Komrad piri, Nic kəndində Hacı Qərib məscidi və s. xarici turistlərin Qəbələyə səfəri zamanı ən çox ziyarət edilən yerlərdir. Bu tarixi məkanların adını vurğulayarkən, Nic kəndinin yaxınlığında Yalovlu dağda eramızdan əvvəl III-I əsrlərdə insan məskənləri olduğunu da qeyd etməliyik. Mənbələrdə göstərilir ki, bu ərazidə dəmir bıçaqlar, xəncərlər, qılınclar, tuncdan hazırlanmış üzüklər, qızıl sırğalar, dəyirman daşları və başqa əşyalar aşkar edilib.

## NƏHƏNG İSTİRAHƏT MƏKANI

Müasirliyi ilə tarixi özündə birləşdirən Qəbələdəki müasir tikililər ona başqa bir görkəm verib. Xüsusilə də turistləri müasir standarlara cavab verən məkanlarda istirahəti üçün tikilən otellər diqqəti cəlb edir. Bu turizm-istirahət mərkəzləri dağ, çay, meşə zolaqları ilə əhatə olunub. Hər bir obyektdə turistlər üçün gözəl şərait yaradılıb. Geniş ərazilərdə atla gəzinti, meşə gəzintisi, balıq ovu, göldə qayıqla gəzinti, üzgüçülük hovuzları, buz üstdə konki meydançası, alpinizm məşğələləri hər bir turisti maraqlandırır. Prezident İlham Əliyev Qəbələ rayonuna səfərləri zamanı yeni beşulduzlu otel və istirahət mərkəzlərinin açılışında iştirak edir, turizmin daha da inkişafı üçün dəyərli tövsiyələrini verir. "Qafqaz Resort" Hoteli öz cazibədar təbiəti, Şərqə məxsus qonaqpərvərliyi ilə regionun ən üstünlük verilən otellərindən biridir. Prezident İlham Əliyev tərəfindən rəsmi açılışı olan otel Böyük Qafqaz sıra dağlarının ətəyində, Dəmiraparan çayının sahilində yerləşir. "Qafqaz Riverside" Hoteli Qəbələnin dəmiraparan çayının sahilində yerləşir. Böyük Qafqaz Sıra dağlarının ətəyində yerləşən "Qafqaz Sport", "Qafqaz Karvansaray" və s. bu kimi otellərdə turistlərin istirahəti üçün hər bir şərait mövcuddur.

Turizm məkanlarından söz açarkən əlbəttə ki, "Tufan" Dağ-Xizək Yay-Qış İstirahət Kompleksinin qeyd etməmək mümkün deyildi. Azərbaycan isti iqlim qurşağında yerləşməsinə baxmayaraq, nadir ölkələrdəndir ki, ən yüksək dünya standartlarına cavab verən nəhəng qış turizm infrastrukturları və kompleksləri yaradır. Belə ki, turizm sahəsində məqsədli şəkildə həyata keçirilən layihələr qış turizminin inkişafına da yeni yollar açdı. Şahdağ qış-yay turizm kompleksinin yaradılması Azərbaycanın qış turizminin inkişafında uğurlara gətirib çıxardı. Qış turizminin inkişaf etdirilməsi ilə bağlı atılan növbəti addımlardan Qəbələdəki "Tufan" Dağ-Xizək Yay-Qış İstirahət Kompleksi oldu. Bu iri kompleksin inşası göstərir ki, Azərbaycanda turizmin inkişafına və bu sahədə infrastrukturun yaradılmasına xüsusi diqqət göstərilir. "Tufan" Dağ-Xizək Yay-Qış İstirahət Kompleksində nəhəng infrastruktur yaradılıb. Ərazidə insanların rahat istirahəti üçün hər cür şəraitə malik infrastrukturun, o cümlədən mehmanxana, ofislər, uşaqlar üçün istirahət guşəsi və digər müvafiq obyektlər yaradılıb. Burada turistlərin istirahətinin təşkili üçün hər cür şəraiti olan restoranlar da yaradılıb.



Ümumiyyətlə, bu nəhəng istirahət məkanı ilin bütün fəsillərində turistlərə kanat gəzintisinə, qış mövsümündə xizəklə sürüşməyə, xizəkçilik məktəbindən, otel və digər xidmətlərdən istifadə etməyə imkanlar verir. Kompleksin əhəmiyyətini artıran mühüm amillərdən biri də burada turistlərin trassa sistemini özlərinə uyğun seçmək imkanlarının olmasıdır. Bütün dağ-xizək trassası süni qar yaratma generasiya sistemi ilə təchiz edilib. Bütünlükdə "Tufan" Dağ-Xizək Yay-Qış İstirahət Kompleksi gün ərzində üç min nəfərə xidmət göstərmək imkanına malikdir. Yaradılan şərait bir daha təsdiqləyir ki, artıq turistlər ilin bütün fəsillərində Qəbələyə səfər edə bilirlər. Yay mövsümündə minlərlə qonağı qarşılayan bu məkan qışda da turistləri ən gözəl istirahət mərkəzinə çevrilib.

Rayonda turizm sektorunun inkişafı üçün ixtisaslı kadrlar hazırlayan Qəbələ Rayon Turizm və Otelçilik üzrə Peşə Tədrisi Mərkəzi respublikamızın müxtəlif bölgələrindəki turizm obyektlərinin də kadrla təmin edilməsi istiqamətində uğurla fəaliyyət göstərir. Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir ki, bu gün ölkəmizin bütün bölgələri o cümlədən Qəbələ sürətlə inkişaf edir. Rayonun sosial-iqtisadi inkişafı və zəngin turizm potensialı yaxın illərdə Qəbələnin dünyanın məşhur turizm mərkəzlərindən birinə çevriləcəyinə zəmin yaradır.

## ŞƏFQƏTƏ VƏ BARIŞA ÇAĞIRIŞ

Qəbələnin son illər bir sıra beynəlxalq mədəni-kütləvi tədbirlərə ev sahibliyi etməsi də bu rayona işgüzar səfərə və istirahətə gələnlərin sayını dəfələrlə artırmışdır. Artıq ənənə halını almış və hər ilin yay aylarında keçirilən Qəbələ Beynəlxalq Musiqi Festivalında dünyanın müxtəlif ölkələrindən dünya şöhrətli musiqiçilər iştirak edirlər. Festivalda səsləndirilən klassik musiqiləri canlı dinləmək üçün yüzlərlə yerli və xarici musiqi həvəskarları Qəbələyə təşrif buyururlar. Qonaqlar musiqi bayramında iştirak etməklə yanaşı, rayonun müasir turizm obyektlərində dincəlir, tarixi abidələri ilə tanış olur, əsrarəngiz təbiətini seyr edirlər. Rayonda turizmin inkişaf dinamikası yüksələn templə davam edir.

Qəbələ həm də müxtəlif xalqların bir məkanda yaşadığı yerdir. Bura gələn turistlər multikulturalizmin Azərbaycanda yaşadığını və bu yaşam tərzinin sülh və dostluq üçün unikal model olduğunu öz gözləriylə görürlər. Azərbaycan xalqına bugünkü rifahı bəxş etmiş və ölkəmizdəki multikultural mühitin siyasi bünövrəsini yaratmış Ulu Öndər Heydər Əliyevin siyasətini ləyaqətlə davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev sülh və əmin-amanlığa, xalqlar arasında dostluğun möhkəmlənməsinə töhfələr verir. Cənab Prezidentin Sərəncamı ilə 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan edilməsi sülhə, şəfqətə və barışa dünya miqyasında bir çağırış oldu. Fərqli dinin, fərqli etnosun yaşadığı Nicin timsalında Azərbaycanda mövcud olan multikulturalizmi görməmək mümkün deyildi. Fərqli dinin, fərqli etnosun yaşadığı Qəbələ rayonunun Nic kəndi udilərin ən iri yaşayış məskənidir. Azərbaycanın qədim yerli xalqlarından biri olan udilər haqqında hələ Herodot, Plini və Strabonun əsərlərində məlumat verilmişdir. Dünyanın etnik xəritəsində udi adlı etnos bu gün əsasən, Azərbaycan ərazisində mövcuddur. Udilər Qafqazın qədim sakinlərindəndir, dilləri Qafqaz dilləri ailəsinin ləzgi yarımqrupuna məxsus olub, çoxlu qədim ünsürləri özündə qoruyub saxlaya bilmişdir. Tarixən Günəşə, Aya sitayiş edən udilər IV əsrin əvvəllərində xristianlığı qəbul etmiş və bu günə kimi dinini saxlamışlar. Nic qəsəbəsindəki Alban-Udi xristian kilsəsi bura gələn xarici turistləri təccübləndirməyə bilməz. Kilsədə səslənən arqan musiqi insanları riqqətə gətirir.

Qeyd edək ki, Qəbələ rayonunun Nic qəsəbəsində yerləşən "Çotari" Alban-Udi kilsəsi yerli sakinlərin vəsaiti hesabına 1723-cü ildə inşa edilib. Kilsənin adı qəsəbədəki Çotari məhəlləsinin adından götürülüb. Sovet hakimiyyəti illərində fındıq anbarı kimi fəaliyyət göstərmiş kilsədə 2003-cü ildə əsaslı bərpa və yenidənqurma işlərinə başlanılmış, 2006-cı ildə dindarların istifadəsinə verilmişdir. Bu gün Qəbələdə udi xalq rəqslərinin sədaları altında keçirilən toy-düyün, müsəlman ölkəsindəki bir xristian məbədində bağlanan mənəvi ittifaq əsl tolerant mühitin ölkəmizdə olduğunun bir göstəricisidir. Dünyanın belə bir çətin zamanında yaşamağımıza baxmayaraq, Azərbaycanda multikulturalizm yaşayır. Əbəs yerə deyilmir ki, Azərbaycan dünyada tolerantlığın və multikulturalizmin paytaxtıdır. Qədim Qəbələnin tarixi məkanları, gözəl təbiəti və müasir istirahət mərkəzləri turistləri heyran edir. Bu gün Azərbaycan dünyada sabitlik adası olaraq tanınır. Təbii ki, ölkənin inkişafında bu sabitlik mühüm rol oynayır. Sabitlik adası kimi tanınan Azərbaycanda dövlətin turizmə diqqət və qayğısı bu sahənin gələcək inkişafına zəmin yaradır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ermənilər döyüşə, yoxsa soyğunçuluğa gedir?

***Ermənilər özlərini dünyanın ən sivil, ən mədəni, həm də ən döyüşkən milləti hesab edirlər. Hətta Misir ehramlarının, Çin səddinin, qədim Babildəki Semiramidanın asma bağlarının, Londondakı Biq-Bən qülləsinin, Moskva, Paris, hətta Nyu-Yorkun əsasını qoyanların da ermənilər olduğunu iddia edən də "hay"lardır. Dünyada tanınmış sərkərdələrinin erməni olduğunu necə, ermənilərin dilindən neçə dəfə eşitmisiniz? Düz tapdınız, dəfələrlə. Dünyada böyük ixtiraların, kəşflərin də müəllifinin ermənilər olduğu barədə erməni uydurmaları dolaşır. Məşhur marka və brendlərin sahibinin erməni olduğu barədə cəfəngiyyat isə istədiyin qədərdir. İrəvanı da özlərinin 4 min illik paytaxtı kimi təqdim etməkdən də utanmırlar və usanmırlar. Amma bütün bu ixtira və yeniliklərin bircəciyinin niyə Ermənistanın indiki ərazisində tətbiq olunmayıb, sualına ermənilər gözlərini döyə-döyə reaksiya verirlər. Hələ Nuhdan danışmıram...***



## Ermənistan vətəndaşları Ukrayna savaşında Rusiyanın muzdlu oldusuna yazılır

Bütün bunlar erməni həyasızlığı, ikiüzlülüyü, riyakarlığıdır. Amma hər birimizin dünyanın müxtəlif yerlərində gördüyümüz ermənilərin dəyişməyən bir sifəti var, kaftar (giena) olmaq. Yəqin bu yırtıcını tanıyırsınız, özü ov etməz, başqalarının ovuna, yuvasına sahib çıxar. Ermənilər kimi, peşman olarsan onlara evinin qapısını açasan, bir də görərsən ki, otağın ən hörmətli yerində - yuxarı başda özlərinə yer etdilər. Müharibəyə, savaşa meylli olsalar da, onların öndə getdiyini hələ də görən olmayıb. Müharibələrdə yalnız oyurluq, çapqınçılıq, yağmalamaq, qənimət əldə etmək üçün iştirak edərlər. Bunu sübut edəcək misallar da az deyil.

İndiki nəsil azərbaycanlılar ermənilərin iç üzünü məhz I Qarabağ müharibəsində tanıdılar. Qarabağın aran və dağlıq hissəsi həmişə çox zəngin olub. Yeraltı sərvətlərinin bolluğu ilə yanaşı insanları da varlı yaşayıb. Ermənilərdən fərqli olaraq çörəkverən oldular, qapıya gələni əliboş yola salmayıblar. Və bu xüsusiyyət, eyni zamanda bölgənin var dövləti bu ikiayaqlıların diqqətini cəlb edib. Günlərin bir günündə isə dünyanın hər yerindən toparlanıb Qarabağa, Azərbaycan torpaqlarına hücum ediblər. Özləri ilə pulun, var dövlətin iyini bilən başkəsənləri də gətiriblər. 30 il Azərbaycan torpaqlarının əvvəlcə üstündə, sonra isə altında nə varsa talayıblar, apara bilmədiklərini isə barbarcasına dağıdıblar. Daşı daş üstə qoymayıblar. Budur, ermənilərin kimliyini təsdiq edən "sənəd" – barbar. Dünyada tanıdığımız, bildiyimiz heç bir vəhşi tayfa onlar qədər əzazil olmayıb. Heç vikinqlər də bu qədər vəhşi olmayıblar.

Bu il qardaş Türkiyədə dəhşətli zəlzələ oldu. Dünyanın hər yerindən zəlzələ qurbanlarının yarasını sarımaq üçün axın etdilər. Türkiyənin qonşusu sayılan Ermənistan da "palaza bürün, elinən sürün" prinsipi ilə hərəkət etmək istədi. Baxmayaraq ki, iki ölkə arasında diplomatik əlaqələr yoxdur, Ermənistanın belə bir həssas zamanda yardın təşəbbüsündə bulunması əvvəlcə təqdir olundu, hətta alqışlayanlar da oldu. Amma bu sevinc erməni xilasedicilərin utancverici əməlləri üzə çıxana qədər davam etdi. Boş qalmış evlərdən qızıl-zinət əşyaları oğurlayan erməni xilasedicilər dərhal Türkiyə ərazisindən uzaqlaşdırıldı. Budur, ermənilərin yaşam tərzi, iç üzü.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzündə və terror aktlarında fəal iştirak edən erməni terrorçuları hazırda Ukraynaya qarşı Rusiya ordusunun sıralarında döyüşmək istəklərini bildirirlər. Məlumata görə, irqçi baxışları ilə seçilən "Erməni qartalları" erməni terror qruplaşması bununla bağlı Rusiya prezidenti Vladimir Putinə müraciət edib. Qrupun rəhbəri Xaçik Asryan müvafiq məktubu Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkinə təqdim edib. Bir müddət əvvəl qrupun sosial media səhifəsində "44 günlük müharibədə Azərbaycana hərbi, iqtisadi və mənəvi dəstək verən" Ukraynaya qarşı döyüşməyə hazır olması barədə məlumat yayılıb.

Vaxtilə Azərbaycana qarşı döyüşmək üçün Qarabağa gedən erməni muzdluları İrəvanda Müdafiə Nazirliyinin binası qarşısında etiraz aksiyası keçirdikləri yəqin ki, yadınızdadır. Muzdlular müharibədə iştiraka görə pulun verilməməsindən şikayətlənirdilər. Ermənistan hökuməti onlara dəfələrlə vəsait köçürəcəkləri vəd edirdi, amma ödəmirdi. 2700-dən çox insan hərbi əməliyyatlarda iştirak üçün Ermənistan hökumətindən pul gözləyirdi. Onlar "vətən", "millət" anlayışını qəbul etməyən, yalnız pula işləyən adi quldurlar idi. İki il bundan əvvələ qədər Qarabağda döyüşənlər də, bu gün Ukraynaya rusların tərəfində döyüşlərdə iştirak edənlər də bir amal uğrunda yaşayırlar, o da paradır.

Bu reallıq Ermənistan ordusunun qalib Azərbaycan Ordusu qarşısında acınacaqlı mövqeyini bir daha sübut edir. Erməni muzdluları hazırlıqsız, qeydiyyata alınmadan və konkret döyüş tapşırığı təyin olunmadan cəbhəyə göndərilirdilər. Başqa sözlə, onlar sadəcə, qurbanlıq qoyun kimi kəsilməyə göndərilirdilər. Böyük ehtimalla iddia etmək olar ki, Ermənistan Müdafiə Nazirliyi öz ordusunun acınacaqlı vəziyyətini bilə-bilə gələcəkdə fəlakətli itkiləri gizlətmək üçün vətəndaşları qeydiyyatsız cəbhəyə göndərirdi. Digər tərəfdən, işğalçı ölkənin müdafiə idarəsini də başa düşmək olar. Döyüş meydanından bir güllə belə atmadan qaçan bu "döyüşçülərə" pul niyə verilir.

Azərbaycan Ordusunun uğurlu hərbi əməliyyatları nəticəsində Ermənistan Respublikasının silahlı qüvvələri böyük canlı qüvvə itkisinə məruz qaldı. Bunun nəticəsidir ki, işğalçı ölkə döyüşçülərin sıralarını artırmaq üçün indi də intensiv resurslar axtarır. Bunun fonunda erməni diasporunun müəyyən dairələri xaricdə yaşayan və üçüncü ölkə vətəndaşı olan etnik ermənilərdən olan muzdlular üçün işə qəbul mərkəzləri yaradırlar. Çox vaxt muzdluların cəlb edilməsi ilə bağlı faktlar işğal olunmuş ərazilərdə Fransa, Kanada, Livan, İspaniya, Yunanıstan və digər ölkələrin vətəndaşlarının sənədləri olan meyitlərin tapılması da bunu bir daha sübut edir.

Dağlıq Qarabağ və ona bitişik ərazilərdə gedən döyüşlər zamanı Yunanıstan vətəndaşları Aren Osipov, İspaniya Armen Knyazyan, Fransa Artur Hovhannisyan, Kanada Kristoper Artin, Livan Gevork Khadjiyan, suriyalı Stepan Keşişyan və bir çox başqa ekstremist muzdlular öldürülüb. Bəzi muzdlular - Rusiya və Gürcüstan vətəndaşları hələ də döyüşlərdə iştirak etməkdə davam edirlər, məsələn, şimal cəbhəsində hardasa sığınacaqlarda qorxaqcasına gizlənən tanınmış erməni separatçısı Vaaqn Çaxalyanı qisas gözləyir. Onların milliyyətcə erməni olmasına baxmayaraq, onların muzdlu olması faktı aktual olaraq qalır və Azərbaycan tərəfinin onların vətəndaşlığı olan ölkələr və silahdaşlarının konsulluq mühafizəsi altında əsir düşə biləcəyi ilə bağlı ciddi sualları ola bilər.

Çox güman ki, Kanada və Yunanıstanda erməni "əsgərləri" onların təhlükəsizliyinə təhdid hesab edilmir, məsələn, Yaxın Şərqdə terror təşkilatlarının tərəfində döyüşməyə gedən eyni ekstremistlər kimi. Bununla belə, bir daha xatırlatmaq istərdik ki, Avropa ölkələrində tüğyan edən zorakı ekstremizm "İslam Dövləti" terror təşkilatı yaradılandan sonra deyil, xeyli əvvəl başlayıb. İlk radikal ekstremistlər Balkanların qaynar nöqtələrinə gedən Avropa ölkələrinin vətəndaşları arasından idi. Avropa ölkələrinin o zamankı geosiyasi maraqları ona kömək etdi ki, Balkanlardan döyüşlərdən sonra geri qayıdan belə elementlər öz ölkələrində praktiki olaraq müşahidə olunmadı. Onlar dini və milli diasporlar arasında az qala qəhrəman sayılırdılar. Nəticə, Avropa ölkələrində Balkanlarda sərtləşmiş və beynəlxalq terror təşkilatı ilə əlaqəsi olan yerli vətəndaşlar tərəfindən törədilən terror aktları oldu.

Təəssüflər olsun ki, tarix təkrarlana bilər və bunun sübutu Rusiyadakı erməni diasporunun Rusiya Federasiyası və digər ölkələrin vətəndaşları arasından muzdlu əsgərlərin cəlb edilməsi və hazırlanması üçün təşkil etdiyi kampaniyadır. Həmin təşkilat hətta ermənilərin Qarabağda özlərini rahat hiss etdikləri vaxtlarda belə, dağlıq şəraitdə gələcək döyüşçülərin hazırlanması üçün düşərgələr təşkil edib. İndi Rusiya öz təşəbbüslərinin iştirakçılarını toplayıb Ukraynaya göndərməyə çalışır. Bu "uğur əsgərləri" kimi strukturların mövcudluğu ilk növbədə Rusiyanın özü üçün təhlükədir, çünki onun yetişdirdiyi ekstremistlərin bəziləri çox güman ki, "qaynar" nöztələrə getməməyə üstünlük verirlər, bacarıqlarını Rusiyanın özündə kriminal və ya ekstremist layihələrdə tətbiq edirlər.

İyulda Azərbaycan və Ermənistan sərhədində vəziyyətin gərginləşdiyi bir vaxtda dünya erməni ekstremistlərdən ibarət mütəşəkkil dəstələrin Los-Anceles və Brüsseldə azərbaycanlılara qarşı necə repressiyalar həyata keçirdiyinin şahidi olduq. Rusiya Federasiyasının hüquq-mühafizə orqanlarının vaxtında gördüyü tədbirlər sayəsində 2 milyona yaxın ermənin yaşadığı Rusiyada isə erməni ekstremizminin artmasının qarşısı alındı.

Ermənistan hələ hərbi əməliyyatlar başlamamışdan əvvəl işğal etdiyi Azərbaycanın Qarabağ bölgəsinə xarici muzdluları və terrorçuları cəlb etməyə başlayıb. Hərbi əməliyyatların başlanmasından və Azərbaycan ordusu tərəfindən Ermənistan Silahlı Qüvvələrinin məğlubiyyətindən sonra Ermənistan hökuməti xarici muzdluların və terrorçuların ölkəyə cəlb edilməsi prosesini sürətləndirib. Ermənistan ordusunun ciddi itkiləri nəzərə alınarsa, bu, gözlənilən idi. Ermənistan öz diasporu vasitəsilə xarici vətəndaşları döyüşlərə cəlb edir. Bunun üçün hətta xüsusi uçuşlar da təşkil olunurdu.

Əslində Avropanın özü öz ərazisindəki erməni əsilli radikallardan xilas olmaq istəyir və buna görə də onların getməsinə və hərbi əməliyyatlarda iştirakına ciddi maneələr yaratmır. Beləliklə, Avropa dövlətləri "mədəni formada" öz ərazilərini erməni əsilli radikallardan təmizləyir, onlar da öz növbəsində guya "vətənpərvərlik" halında Qarabağda, Ukraunada, Suriyada, PKK tərkibində İraq və İran, o cümlədən Türkiyə ərazisində təxribatçılıqla məşğul olurlar. Avropa eyni anda iki məsələni həll edir - ərazisini radikal ermənilərdən təmizləyir, eyni zamanda guya ermənilərə kömək edir.

Bəli, erməni muzdluları Gürcüstanın qanuni hökumətinə qarşı Abxaziyada, Cənubi Osetiyada gedən döyüşlərdə iştirak edirlər. Gürcüstanın işğal altındakı əraziləri ilə yanaşı "ermənilərin girovluğundakı" Cavaxetiya bölgəsindən də erməni muzdlular qonşu dövlətlərdə gedən döyüşlərdə, müharibələrdə iştiraka cəlb edilir. Yuxarıda dediyimiz kimi, döyüşməkdən çox boş qalan evləri soymaq, insanların min bir əziyyətlə topladıqları var-dövlətə sahiblənmək üçün...

**V.VƏLİYEV**

# DNT deqradasiyası yaradan qulaqcıqlar

## *Simsiz qulaqcıqlar, "bluetooth" saatlar və səsgücləndiricilər insan orqanizmi üçün təhlükəlidir*





***Simsiz qulaqcıqlar çox uzun müddət istifadə edildikdə, maqnit sahəsinin təsiri insanın hüceyrə DNT-sinin pozulmasına, xərçəng əmələ gəlməsinə və s. xəstəliklərə səbəb ola bilər. Həmçinin, bu qulaqcıqlar vasitəsilə yüksək səslə musiqi dinləmək qalıcı eşitmə probleminə səbəb ola bilər.***





”Bluetooth” texnologiyası son vaxtlar bir çox sahələrdə istifadə olunur. Bu sahələrin başında təbii ki, geyilə bilən texnoloji cihazlar və kompüter, telefon avadanlıqları gəlir. Texnologiya şirkətləri ”bluetooth” texnologiyasının köməyi ilə yüksək performanslı geyilə bilən texnoloji cihazlar və telefon avadanlıqlarını bazara təqdim etməyə başlayıblar. Bura qulaqcıqlar, saatlar da daxildir. Həmçinin simsiz səsgücləndiricilər də insan orqanizmi üçün təhlükəlidir.

Doğrudur, bu avadanlıqların istifadəsi insanlar üçün çox rahatdır. Bu gün bir çox texnologiya şirkəti ”bluetooth” qulaqlıqları istehsal edir. Bu, bazarda da müxtəliflik yaradır. Bazardakı müxtəliflik istifadəçilərə istədikləri keyfiyyətdə ”bluetooth” qulaqlıqlarını daha sərfəli qiymətlərlə almaq imkanı yaradır. Lakin keyfiyyət və təhlükə məsələsi düşündürücüdür.

Kaliforniya Universitetinin professoru Dr. Joel M. Moskowitz deyir ki, elektromaqnit dalğalarının sağlamlığa mənfi təsirləri ilə bağlı çoxlu araşdırmalar aparılsa da, uzun müddətli elektromaqnit dalğalarına məruz qalma nəticəsində yarana biləcək problemlərə qarşı hansı ehtiyat tədbirlərinin görülə biləcəyi haqqında kifayət qədər məlumat yoxdur. Ona görə də simsiz qulaqcıqlardan istifadə edənlər bu təhlükənin ola biləcəyi ehtimalını da nəzərə almalıdırlar.

Uzun müddət istifadə edildikdə simsiz qulaqcıqları radiotezlik radiasiyası adlanan müəyyən növ ionlaşmamış elektromaqnit sahəsi yayır. Eyni təhlükəni kompüterlər, mobil telefonlar və hətta mikrodalğalı sobalar da yaradır. Beynəlxalq Xərçəng Araşdırmaları Agentliyi bu növ radiasiyanı insanlarda xərçəngə səbəb ola biləcək təhlükə kimi təsnif edir. Bu təsnifat mobil telefon istifadəsinin beyin xərçənginə rəvac verməsi fikrinə əsaslanırdı. Eynilə, həmin universitetin 2018-ci ildə mobil telefonlarda 2G və 3G texnologiyalarının xərçəngə səbəb ola biləcəyi barədə apardığı elmi araşdırmaları da bunu sübut etmişdi.

Mütəxəssislər bildirirlər ki, simsiz, başqa adla ”bluetooth” qulaqcıqları insanların diqqət səviyyəsini azaltmaqla yanaşı, onların ətraf mühitə qarşı həssaslığını azaldır, həmçinin yol qəzalarına da səbəb olur. Ekspertlər hesab edir ki, simsiz qulaqcıqların, xüsusilə, sosial ünsiyyət və sosial inkişaf baxımından gənclərə mənfi təsir göstərməsi barizdir.

Uzun müddət istifadə edilən simsiz qulaqcıqların təhlükəsinə diqqət çəkən qulaq, burun, boğaz həkimi Məlahət Həsənəliyeva bildirir: ”Bluetooth qulaqcıqları son vaxtlar, xüsusilə, gənclər tərəfindən çox istifadə edilən cihazdır. ”Bluetooth”, əslində, radiotezlik şüasıdır. Yeni, ionlaşdırıcı olmayan bir şüadır. Maqnit sahəsi ola bilər, ”bluetooth”un yaratdığı şüalanma qulağa zərər verər. Bu, dövrümüzün əsas problemidir, xüsusilə, gənclər arasında çox yayılıb, elə eşitmə narahatlığına görə müraciət edənlərin əksəriyyəti də gənclərdir.”

Qeyd edək ki, araşdırmalar prosesində maqnit sahələrinə məruz qalan siçanlar və ya dovşanlar üzərində aparılan tədqiqatlar göstərib ki, ürək və beyin şişləri kəskin şəkildə artır. Çox uzun istifadə müddətində maqnit sahəsinin təsirindən hüceyrə DNT-sinin pozulması, xərçəng əmələ gəlməsi kimi problemlər yarana bilər.

Xüsusilə, maşın sürərkən qulaqcıqdan istifadə edən insanlar görürük. Təbii ki, onlar belə olanda ətrafdan gələn səsləri eşitməkdə çətinlik çəkirlər. Həmçinin, qulaqcıqda olan insanların yol hərəkətinin təşkilində problem yaratmaları faktları da çoxdur, çünki qulaqcıq onun ətrafa həssaslığını minimuma endirir.

Aparılan araşdırmalar zamanı əldə edilən nəticələrdən sonra alimlər xəbərdarlıq edirlər ki, xroniki şüalanmaya məruz qalmanın potensial sağlamlıq risklərinə xərçəng, genetik zədələr, nevroloji pozğunluqlar, öyrənmə və yaddaş çatışmazlığı, reproduktiv problemlər və digərləri daxildir.

Bluetooth və simsiz qulaqlıqlar mobil telefon ilə müqayisədə daha az radiasiya yaysa da, onların bədənə daha yaxın mövqedə istifadə edilməsi bu risqi artırır. Belə ki, ”bluetooth” cihazlarının - xüsusilə simsiz qulaqcıqların təsirinə qulaqların faktiki məruz qalması mobil telefonunuzdan məruz qala biləcəyiniz şüalanmanın yarısı qədərdir. Lakin mobil telefonu mikrofon rejimində istifadə etmək bu riski dəfələrlə azaldır, amma geyilə bilən simsiz texnoloji alətlər riski artırır.

***Lalə Mehralı***

# Göygöldə gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər





***“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, Ümummilli Liderin xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.***

İyulun 5-də Yeni Azərbaycan Partiyası Göygöl rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Göygöl rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.

Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunaraq, önünə gül dəstələri düzülüb. Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

Daha sonra Heydər Əliyev Mərkəzində dəyirmi masa keçirilib. Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən bəhs edilib.

Eyni zamanda, Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş olunub. Sonda xatirə fotosu çəkdirilib.

# İnsanlıq qarşısında özünü alçaldan millət

## *Ermənilər tərəqqipərvər xalqlara, mədəni, sivil millətlərə qarşı vəhşi və qanlı qətliamlar törədiblər*

***Bütün dövrlərdə ermənilər tərəqqipərvər xalqlara, mədəni, sivil millətlərə qarşı vəhşi və qanlı qətliamlar törədiblər. Xüsusilə də, azərbaycanlıları hədəf seçən erməni-daşnak dəstələri iki əsr ərzində yüzlərlə yaşayış məskənini dağıdıb, iki milyona yaxın insanı qətlə yetiriblər. Ermənilərin qəsbkar siyasəti iyirminci əsrin sonlarında daha amansız xarakter daşımışdır. Nəticədə, Azərbaycanın yüzlərlə yaşayış məskəni yer üzündən silinmiş, tarixi abidələri, yaşı min illər olan memarlıq nümunələrini məhv etmiş, 50 minə yaxın insanın həyatına son qoymuşlar.***





Erməni terrorçu dəstələri Moskvadakı ağalarının hərbi-siyasi dəstəyinə arxalanaraq Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağı, o cümlədən Ağdamı, Füzulini, Cəbrayılı, Qubadlını, Zəngilanı, Laçını və Kəlbəcəri işğal edib xarabalıqlara çevirdilər. Ümumilikdə Azərbaycanın 12 rayonunun 17 min kvadrat kilometr ərazisində olan 700 yaşayış məntəqəsi işğala məruz qalmışdır. Erməni təcavüzü nəticəsində 35 minə qədər azərbaycanlı həlak olmuş, 4 minə qədər insan girov götürülmüşdür ki, onların əksəriyyətini uşaqlar, qadınlar və qocalar təşkil edir. Yeri gəlmişkən, 1918-ci il Batum müqaviləsinə görə cəmisi 9 min kvadrat kilometr ərazisi olan Ermənistan ötən dövrdə 40 min kvadrat ərazisi kilometr tarixi Azərbaycan torpaqlarını qəsb etmişdir. Ancaq müzəffər Azərbaycan ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə cəmi 44 gün ərzində Ermənistan ordusunu darmadağın edərək torpaqlarımızı işğaldan azad edib, ərazi bütövlüyümüzü bərpa etdi. Artıq Qarabağ münaqişəsi yoxdur, bütöv, qüdrətli Azərbaycan sərhədləri daxilində Şuşa, Xankəndi, Kəbəcər, Laçın və digər azad nəfəs alan ərazilərimiz var. Müzəffər Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 10-da xalqa müraciətində demişdir: "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır".

### Paşinyanın müharibə dövründə ona-buna yalvarması onlara kömək etmədi

44 günlük Vətən Müharibəsində Azərbaycan ordusu yüksək peşəkarlıq və qətiyyət nümayiş etdirərək az itkilərlə torpaqlarımızın yağı düşməndən azad edilməsinə nail oldu. Müharibəyə qədər özlərini "qəhrəman", "cəsur" toplum kimi apamağa çalışan ermənilər, əslində, rəzil və qorxaq millət olduqlarını bütün dünyaya nümayiş etdirdilər. Ölkənin Baş naziri N.Paşinyan bütün beynəlxalq təşkilat rəhbərlərinə, aparıcı ölkələrin hökumət və dövlət başçılarına müharibənin dayandırılması üçün yalvarmışdır. Vəziyyət o dərəcə də biabırçı hal almışdır ki, Paşinyanın ağlaya-ağlaya dünya liderlərinə acizanə xahişlər etməsinə tanınmış blogerlər, söz, sənət aparıcıları məsxərəyə qoyub şeirlər qoşmuş, komik videolar paylaşmışlar. Nəhayət, "Ermənistan təslim olur, Azərbaycan qalibdir" mesajları ortaya çıxdıqdan sonra müharibə dayandı. 2020-ci il noyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti, Yenilməz Sərkərdə, Ali Baş Komandan İlham Əliyev 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşündə demişdir: "Atılan addımlar bütün bir məqsədi güdürdü ki, qısa müddət ərzində az itkilərlə düşmənə elə sarsıdıcı zərbə vuraq ki, düşmən məcbur olub torpaqlarımızdan çıxsın. Döyüş meydanında qazanılmış qələbələr siyasi müstəvidə də qələbənin qazanılmasını şərtləndirdi. Əgər döyüş meydanında biz bu qələbəni qazanmasaydıq, inanmıram ki, işğalçı qalan torpaqlardan çıxacaqdı. Necə ki, torpaqlarımızı 30 ilə yaxın müxtəlif yollarla işğal altında saxlamağa can atan düşmən bu işğalı əbədi etmək istəyirdi, biz danışıqlar yolu ilə də heç bir nəticə əldə edə bilməzdik. Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq".

### Azərbaycanın parlaq qələbəsi hərb tarixinə qızıl hərflərlə yazılır

Mövcud faktlar ondan ibarətdir ki, 44 günlük Vətən müharibəsinə qədər erməni terrorçu dəstələri Azərbaycan ordusunun gücünü, qüdrətini görmüşdür. Yalnız 2016-cı ilin Aprel döyüşlərində düşmənin onlarla terrorçu qüvvəsi məhv edilmiş, çoxsaylı hərbi texnikası sıradan çıxarılmış və geniş ərazi işğaldan azad edilmişdir. 1992-ci ildə erməni silahlı birləşmələri tərəfindən işğal edilən Şərur rayonunun Günnüt kəndi 26 ildən sonra Müzəffər Azərbaycan ordusu tərəfindən azad edilmişdir. Ümumilikdə, 11 min hektara yaxın ərazi düşməndən azad edilib. Bu ərazinin isə 8 min hektardan çoxu əkin üçün, xüsusilə dəmyə əkinçiliyi üçün yararlı ərazilərdir. Şərur rayonunun Günnüt kəndini nəzarətdə saxlamağa imkan verən, dəniz səviyyəsindən 1683 metr hündürlükdə yerləşən "Qızılqaya" yüksəkliyinin ən böyük strateji əhəmiyyəti isə ordumuza İrəvan-Yexeqndzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət etməyə imkan verməsidir.

İşğaldan azad edildikdən dərhal sonra kənd camaatı doğma torpaqlarına qayıdıb, yaxınlarının məzarlarını ziyarət edib, müqəddəs "Qurani-Kərim" oxunub. Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklərin azad edilməsi ilə ordumuz daha əlverişli mövqelərə sahiblənib, "Xunut" dağı və "Ağbulaq" yüksəkliyi, daha sonra isə "Qızılqaya" dağı və "Mehridağ" işğaldan azad edilərək Dərələyəz mahalının Arpa kəndi (ermənilər adını dəyişdirərək "Areni" qoyublar) nəzarət altına keçib. Artıq kənddə gedən yararsız 50 kilometr yol yenidən qurulub, Strateji əhəmiyyətli Arpaçay Su Dəryaçasının taktiki cəhətdən etibarlı mühafizəsinin təşkili üçün hakim yüksəkliklərdə yeni müdafiə mövqeləri qurulub."2016-cı ildə Aprel döyüşlərində düşmənə dərs verdik və Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini düşməndən azad etdik"- deyən Müzəffər Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyev 2018-ci ildə uğurlu Naxçıvan əməliyyatı nəticəsində on min hektardan çox torpaq sahəsinin Azərbaycan Ordusu tərəfindən götürüldüyünü və işğalçıların o bölgələrdən qovulduğunu qeyd etmişdir.

### Xankəndidəki separatçılar İrəvana qaçmağa hazırlaşırlar

Xankəndidəki separatçılar Azərbaycan Ordusu tərəfində sərt şəkildə cəzalanacaqlarından qorxduqları üçün İrəvana qaçmağa hazırlaşırlar. Hələlik isə, Rusiyadan sonuncu xəbər gözləyirlər. Bu məqsədlə də terrorçu A.Artunyan Paşinyan vasitəsi ilə Rusiya Prezidenti Vladimir Putinə məktub ünvanlayıb. Ekspertlər terrorçu Arayikin məktubuna Putinin cavab verməyəcəyini, ümumiyyətlə məktuba nəzərə yetirməyəcəyini söyləyirlər.

"Separatçı Araik Arutunyan Putinə məktub yazaraq ondan kömək istəməsi Qarabağda yaşayan separatçıların ağalıq dövrünün sonunun yaxınlaşdığının göstəricisidir". Bunu millət vəkili Azər Badamov "Səs" qəzetinə açıqlamasında deyib. Onun sözlərinə görə, Araik elə bilir ki, Putinə məktub yazmaqla öz çirkin niyyətlərini davam etdirə biləcəklər: "Amma anlamaq istəmirlər ki, onların erası başa çatıb və vəziyyətdən yeganə çıxış yolu Azərbaycana inteqrasiya olunmaqdır. Yeni eranın gündəliyini Azərbaycan müəyyənləşdirir. Qarabağda ermənilərin yaşadığı torpaqlar Azərbaycanın suverən əraziləri olduğunu bütün dünya təstiq etmişdir. O cümlədən Rusiya da separatçıların məskunlaşdığı ərazilər Azərbaycana məxsus olduğunu dəfələrlə bəyan etmişdir. Sülhməramlılar bu ərazilərdə yerləşdiriləndə inteqrasiya proseslərin və birgəyaşayış təmin edilməsi məqsədi daşıyırdı. Amma ermənilər sülhməramlıların Qarabağda olmasından sui-istifadə edərək Azərbaycana inteqrasiya olunmaq əvəzinə öz çirkin niyyətlərinə davam etdirdilər. Bu gün artıq yeni reallıq mövcuddur. Bu yeni reallıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyi Azərbaycan dövlətin daxilində təmin olması ilə bağlıdır. Separatçıların törətdikləri təxribatlar Azərbaycanın separatçıların olduğu yerdə dövlət quruluşunu bərpa edilməsi prosesini bir az da sürətləndirir. Sülhməramlıların Qarabağda mövcudluğu 2025-ci ildə başa çatacaqdır. Ondan sonra Azərbaycan əsgəri Xankəndidə yaşayan erməni əsilli vətəndaşlarımızın təhlükəsizliyinin qarantı olacaq. Separatçılar ona-buna yalvarmaq əvəzinə bu reallığı nə qədər tez qəbul edərək bayrağımız altına keçsələr, onların özləri üçün bir o qədər yaxşıdır".

"Münaqişə başa çatdıqdan az sonra Azərbaycan Ermənistanla bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında sülh sazişi imzalamaq üçün beş əsas prinsipini təqdim edib". Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Nazirlər görüşündə çıxışı zamanı səsləndirib."Ermənistanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa məcbur olmasına baxmayaraq, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində hələ də Ermənistan silahlı qüvvələrinin qalıqları mövcuddur", - deyən Prezident İlham Əliyev çoxdan gözlənilən sülhdə maraqlıdırsa, onda onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsindən tamamilə çıxmalıdır. Bölgədəki erməni hərbi və yarımhərbi elementləri tərksilah edilməli və tərxis olunmalıdır.

Təbii ki, Ermənistanın və Xankəndidəki separtçıların vaxtı daralır. Əgər prosesi uzatmağa yeni cəhdlər göstərəcəklərsə, bu, onların sonunun gətirilməsi ilə nəticələncək. Çünki qalib Azərbaycanın gözləmə mövqeyi yoxdur, ya Ermənistan sülh müqaviləsini imzalayacaq və sənədlərlə Qarabağın Azərbaycanın ərazisi olduğunu qeyd edəcək, ya da günün birində Azərbaycan ordusu Xankəndinə daxil olaraq separatçıların təmizlənməsi əməliyyatına başlayacaq.

**İ.ƏLİYEV**

# Qalib Ordumuz!





*Prezident İlham Əliyev: "Bu gün Azərbaycan Ordusu müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərmiş Azərbaycan Ordusundan daha da güclüdür"*



“Biz bu gün Silahlı Qüvvələrimizi vahid proqram əsasında inkişaf etdiririk və əminəm ki, yaxın gələcəkdə bizim Ordumuz yeni, yüksək səviyyəyə qalxacaqdır. Mən bunu artıq demişəm, bir daha demək istəyirəm, bu gün Azərbaycan Ordusu müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərmiş Azərbaycan Ordusundan daha da güclüdür”. Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirib. İkinci Qarabağ müharibəsindən sonra ordu quruculuğu prosesinin daha geniş vüsət aldığını bildirən Cənab Prezident işğal dövründə ordu quruculuğunun bizim üçün bir nömrəli vəzifə olduğunu qeyd edib: ”Ordumuzun, bütün Silahlı Qüvvələrimizin torpaqlarımızın azad olunması üçün hazırlıq işlərinə xüsusi önəm verilirdi və biz buna nail olduq. Vətən müharibəsi Azərbaycan dövlətinin tam Zəfəri ilə yekunlaşmışdır”. Bu gün Azərbaycan Silahlı Qüvvələrinin quruculuğu prosesi Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir və ordumuz inkişaf, təkmilləşmə dövrünü yaşayır. Azərbaycan Ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadir bir ordudur. Azərbaycan Silahlı Qüvvələri bu gün müasir texnika ilə təchiz edilib, Vətənin müdafiəsinə daim hazır olan yüksək nizam - intizama malik bir quruma çevrilib.

Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyev çıxışlarının birində demişdir ki, müasir mütəşəkkil ordu yaradılması Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük tarixi xidmətlərindən biri olub.

İyunun 26-sı Cümhuriyyətin varisi olan müstəqil Azərbaycan Respublikasında Silahlı Qüvvələr Günü qeyd olunur. 1918-ci il mayın 28-də yaranmış Azərbaycan Demokratik Respublikasının cəmi 23 ay yaşamasına baxmayaraq, ölkədə çox böyük nailiyyətlərə imza atmışdı. Görülən işlər sırasında ordu quruculuğu sahəsindəki tədbirlər böyük əhəmiyyət kəsb edir. Azərbaycan Demokratik Respublikası hökumətinin qərarı ilə 1918-ci il iyunun 26-da ilk hərbi hissə - əlahiddə korpus yarandı. Bu qərar Şərqin müsəlman aləmində ilk demokratik hökumətin ordusunu yaratmasına hüquqi əsas verdi. Bunun ardınca ölkədə hərbi mükəlləfiyyət - orduya çağırış haqqında hökumət tərəfindən fərman verildi. Avqustun 1-də AXC-nin Hərbi Nazirliyi təsis edildi. General Səməd bəy Mehmandarov dekabrın 25-də hərbi nazir, general-leytenant Əliağa Şıxlinski nazir müavini təyin edildilər. Qısa zaman məsafəsində Azərbaycanda milli ordu quruculuğunda uğurlar əldə edildi. Bu gün həmin tarixdən bir əsrdən artıq zaman ötür.

### “BİZİM ÜÇÜN BU GÜN PRİORİTET MƏSƏLƏLƏRDƏN BİRİ ORDU QURUCULUĞU, DİGƏRİ İSƏ QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURUN BƏRPA EDİLMƏSİDİR”

Bu gün Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Milli Ordusu Hərbi Hava və Hava Hücumundan Müdafiə, Hərbi Dəniz və Quru qoşunlarından ibarətdir. Bu qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq iqtidarındadır. MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. Büdcə vəsaiti ildən-ilə artırılan Azərbaycan Silahlı Qüvvələrinin buna müvafiq olaraq hərbi imkanları da genişlənir. ”Uğurlu iqtisadi siyasətimiz bizə imkan verir ki, ordu quruculuğuna, yeni silahların, yeni texnikaların alınmasına, yeni döyüş birləşmələrinin yaradılmasına lazımi dərəcədə dövlət vəsaiti ayrılsın. Bizim uğurlu iqtisadi siyasətimizi, ölkəmizin artan gəlirlərini nəzərə alaraq, bu yaxınlarda dövlət büdcəsinə əlavələr edilmişdir. Onsuz da bu ilin dövlət büdcəsi müstəqil Azərbaycan tarixində rekord büdcədir. Ancaq buna baxmayaraq, biz əlavə vəsaiti əldə edən kimi büdcənin artırılmasına yeni böyük məbləğdə vəsait ayırdıq və burada iki əsas istiqamət müəyyən edilmişdir - birincisi, Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsi, ikincisi, hərbi potensialımızın gücləndirilməsi. Yəni, təkcə bu fakt özlüyündə onu göstərir ki, bizim üçün bu gün prioritet məsələlərdən biri ordu quruculuğu, digəri isə Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsidir”, - deyə Prezident bildirib. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılır. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır. Bu gün Azərbaycanda istehsal olunan bir çox hərbi məhsullar ordumuzun potensialının gücləndirilməsində əsas amillərdən biridir. Ölkəmizdə yaradılan 20-dən çox hərbi zavodda müxtəlif adda hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur. Ölkənin yeni hərbi qüdrəti və üstünlüyü 2016-cı ilin aprel döyüşlərində nümayiş etdirilmişdi. Bu hərbi əməliyyatlar ən müasir hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələrinin döyüş əməliyyatlarında real üstünlüyə malik olduğunu göstərdi. Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Beləliklə, Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə xalqımıza qələbə sevinci yaşatdı.

### “DÜŞMƏNƏ ELƏ SARSIDICI ZƏRBƏ VURDUQ Kİ, DÜŞMƏN BU GÜNƏ QƏDƏR ÖZÜNƏ GƏLƏ BİLMİR”

Qüdrətli Azərbaycan Ordusunun qarşıya qoyulan istənilən vəzifəni - döyüş tapşırığını yerinə yetirməyə qadir olduğu bütün dünyaya nümayiş etdirildi. Eyni zamanda, Naxçıvan əməliyyatı Azərbaycan Ordusunun gücünü, hərbçilərimizin rəşadət və cəsarətini düşmənə əyani surətdə nümayiş etdirdi. Bunlarla yanaşı, Azərbaycan həm Aprel döyüşləri, həm də Günnüt zəfəri çərçivəsində zamanı əldə etdiyi şanlı qələbə ilə, eləcə də diplomatik müstəvidə qazandığı üstünlüklə öz gücünü göstərdi. Vətənə, dövlətə bağlı olan Azərbaycan Ordusunun Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərinə sancdığı Azərbaycan bayrağını tezliklə erməni işğalında olan torpaqlarımızda da dalğalandıracağına inamımız sonsuz idi. Nəhayət, həmin zamana şahidlik etdik. Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi. ”Mən işğal dövründə dəfələrlə deyirdim ki, bizim üçün birinci vəzifə ərazimizin bərpasıdır, ərazi bütövlüyümüzün təmin edilməsidir. Deyirdim ki, əgər danışıqlar nəticə verməsə, biz güc tətbiq edərək öz tarixi torpaqlarımızı azad edəcəyik. Əfsuslar olsun ki, mənim sözlərimə bəziləri laqeyd yanaşdı. Ermənistan və onun xarici havadarları hesab edirdilər ki, onlar bizim torpaqlarımızı işğal altında əbədi saxlayacaq. Biz onların məkrli planlarını alt-üst etdik. Müharibəyə hazırlaşdıq, düşmənə elə sarsıdıcı zərbə vurduq ki, düşmən bu günə qədər özünə gələ bilmir”, - deyə Cənab Prezident bildirib. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə zəfər yürüşünə başlaması və qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağı edərək qələbə qazanması tariximizə yeni gün olaraq daxil edildi. Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun ”Dəmir yumruq” əməliyyatını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi. Prezident İlham Əliyevin dediyi kimi, O, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu – Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi. Ermənilərin qoyub qaçdığı hərbi texnikalar, silah-sursatlar bu gün Hərbi Qənimətlər Parkında nümayiş olunur. Vətən müharibəsində qazanılan zəfər bütün türk dünyasının qələbəsi olaraq dünyaya mesaj oldu.

Bu gün hərbi əməliyyatlar zamanı istənilən nöqtədə düşmənə sarsıdıcı zərbələr endirmək qabiliyyətinə malik güclü ordumuz var.

***Zümrüd BAYRAMOVA***

# Belə dostlara düşmən lazım deyil



## *Ukrayna, Moldova və Gürcüstan arasında Mixail Saakaşvili üstündə dava düşüb*

Gürcüstan Xarici İşlər Nazirliyi Ukrayna hakimiyyətinin Gürcüstanın səfiri Georgi Zakaraşvilinin ölkədən çıxarılması ilə bağlı qərarından ”dərin narahatlığını” ifadə edib. Gürcüstanın kəskin arıqlamış eks-prezidenti, Ukrayna vətəndaşı, 6 il həbs cəzası çəkən Mixail Saakaşvilinin görüntülərinə Kiyev belə reaksiya verib. Moldova hakimiyyəti də o qədər də kəskin olmasa da, Gürcüstan hakimiyyətinin hərəkətlərini tənqid edib. Demək olar ki, Aİ yolunda hərəkətləri əlaqələndirmək üçün Kiyev, Tbilisi və Kişinyov tərəfindən yaradılan “Associated Trio” fəaliyyətini dayandırıb.

Gürcüstan Xarici İşlər Nazirliyi iyulun 4-də bəyanat yayaraq, Ukrayna hakimiyyətinin faktiki olaraq Gürcüstanın Kiyevdəki səfiri Giorgi Zakaraşvilini hökuməti ilə məsləhətləşmək üçün ölkədən çıxarmaq qərarına gəldiyindən “dərin narahatlığını” ifadə edib. “Ukrayna hakimiyyətinin qərarı iki ölkə arasında strateji münasibətlərə ciddi ziyan vurur və suveren dövlətin daxili işlərinə birbaşa müdaxilədir”, - kommünikedə deyilir.

Həmçinin bildirilir ki, Tbilisi onunla ikitərəfli münasibətləri gərginləşdirmək üçün müharibə aparan Ukraynaya qarşı cavab addımlarından çəkinəcək. Bundan əlavə, XİN-də qeyd edildiyi kimi, Tbilisi Ukraynanı, onun xalqını və ölkənin ərazi bütövlüyünü dəstəkləməkdə davam edəcək.

Artıq buludsuzluqdan uzaq olan Tbilisi ilə Kiyev arasında münasibətlər Ukrayna prezidenti Vladimir Zelenski və Ukraynanın xarici işlər naziri Dmitri Kulebanın Gürcüstanın eks-prezidenti Mixail Saakaşvili ilə yeni görüntülərə reaksiyasından sonra pisləşib. Arıqlamış Saakaşvilinin videobağlantı vasitəsilə məhkəmə prosesində iştirakını əks etdirən video bu həftə dünya mediasında yayılıb. Eks-prezident ötən ilin may ayından endokrinoloji və psixi xəstəliklərdən müalicə aldığı Tbilisidəki Vivamedi klinikasının xəstəxana palatasından əlaqə saxlayıb.

Ukrayna vətəndaşı olan Mixail Saakaşvilinin görüntüləri Vladimir Zelenskini heyran edib. O, Ukrayna Xarici İşlər Nazirliyinə Gürcüstanın Kiyevdəki səfirinə Mixail Saakaşvili ətrafındakı vəziyyətlə bağlı hökuməti ilə məsləhətləşmələr aparmaq üçün 48 saat ərzində ölkəni tərk etməyi “məsləhət” görüb.

Cənab Zelenskinin sözlərinə görə, Kiyev eks-prezidentin müalicəyə buraxılması xahişi ilə dəfələrlə Tbilisiyə müraciət edib, lakin rədd cavabı alıb. Ukrayna prezidenti həmçinin Twitterdə yazıb ki, Mixail Saakaşvili Gürcüstan hakimiyyətinin əli ilə “Rusiya tərəfindən öldürülür”.

İyulun 4-də səfir Zakaraşvili Ukrayna Xarici İşlər Nazirliyinə səfər edilib və orada ona deyiblər ki, “Mixeil Saakaşviliyə bu cür münasibət qətiyyən yolverilməzdir” və “Gürcüstan hakimiyyəti Ukrayna vətəndaşını təhqir etməyi dayandırmalıdır”. Səfirə, gözlənildiyi kimi, məsləhətləşmələr üçün Tbilisiyə “qayıtmağı təklif etdilər”.

Bu, diplomatik münasibətlər üçün kifayət qədər sərt və tipik olmayan addımdır. Onun ölkəsi məsləhətləşmələr üçün öz səfirini geri çağıra bilər - bu, adətən münasibətlər pisləşəndə edilir. Yeri gəlmişkən, Gürcüstan hakimiyyəti bunu 2020-ci ildə Kiyevdəki səfiri ilə, həm də Mixail Saakaşviliyə görə edib. Diplomatik missiyanın o zamankı rəhbəri Teymuraz Şaraşenidze Ukrayna hakimiyyətinin cənab Saakaşvilini Milli İslahat Şurasının icraiyyə komitəsinin rəhbəri təyin etmək qərarına görə geri çağırılıb.

Xarici diplomatın işləmək üçün akkreditə olunduğu dövlət onu ölkədən çıxara bilər ki, bu da güclü jestdir. Lakin Kiyev bununla razılaşmayıb.

Kişinyov da Tiflisi tənqid edib, amma daha yumşaq. Moldova prezidenti Maia Sandu tvitter hesabında “Mixeil Saakaşvilinin məhkəmədə səhhətinin ciddi şəkildə pisləşdiyini göstərən görüntülərdən dərin narahat olduğunu” bildirib. O, Gürcüstan hakimiyyətini ”onun vəziyyətinə prioritet diqqət yetirməyə və təcili olaraq xaricdə tibbi müalicəyə çıxışı təmin etməyə” çağırıb. Beləliklə, Kişinyov Tbilisi ilə münaqişədə Kiyevi dəstəkləyib. Baxmayaraq ki, iki il əvvəl, 2021-ci ilin mayında üç ölkənin alyansı - ”Associated Trio”-nun yaradılması elan edilib.

# Erməni müxalifətçi: “Paşinyan yalnız özünü və kreslosunu qoruyur, hamını satacaq”



Ermənistanda hazırkı baş nazir Nikol Paşinyan əleyhinə etirazlar aramsız şəkildə artır. Müxalifət təmsilçiləri artıq baş naziri hədələməkdən də çəkinmirlər. ”Hakimiyyət hesab edir ki, insanlar həbslərdən və uydurma cinayət işlərindən qorxurlar”. ”Panoram.am” saytının yazdığına görə, bu açıqlama ilə RPA-nın siyasi məhbus Armen Aşotyanın müdafiəsində təşkil etdiyi etiraz aksiyası zamanı ”şərəfim var” fraksiyasının rəhbəri Ayk Mamijanyan bildirib.

”Yalnız özünü və kreslosunu qoruyur və heç bir izahat vermədən hər kəsi satacaq. Deyilənləri yerinə yetirərkən rahat yaşayacaqlarını düşünən insanlar yaşamayacaqlar”, - deyən müxalif deputat vurğulayıb.

**Mətləb Salahov**



# Ortadan itmiş “qızıl orta” nəsil



**Elçin Bayramlı**

***Son illərdə bəzi sahələrdə kadr islahatları aparılır və həddən artıq yaşlanmış köhnə kadrlar cavan kadrlarla əvəzlənir. Bu, bir tərəfdən baxanda optimal yanaşmadır. Əlbəttə, hər hansı bir təşkilatda, idarədə, müəssisədə bir şəxsin çox üzün dövrdə vəzifədə qalması istər-istəməz həmin strukturda ətalət yaradır, yenilənməyə və müasir tələblərə cavab verən iş prinsiplərinin bərqərar olmasına mane olur. Məhz bu səbəbdən son dövrlərdə dövlət strukturlarında, özəl müəssisələrdə, ictimai təşkilatlarda bu proses gedir- pensiya yaşını keçmiş nəsil gənc nəsillə əvəzlənir. Bu, dediyimiz kimi, çox müsbət haldır, lakin burada bir balaca “əmma” var.***

Bu “əmma” ondan ibarətdir ki, əksər hallarda bu dəyişiklik baş verərkən bir mərhələ hoppanma baş verir, nəsillər arası davamlılıqda qırılma olur. Belə ki, yaşlı nəsli ortayaşlı nəsil əvəzləmək əvəzinə, gənc nəsil əvəzləyir. Yəni, konkret misalda desək, 70-75 yaşlı bir şəxsi məsul vəzifədən azad edirlər, amma yerinə... 25-30 yaşlı gənci təyin edirlər. Burada artıq davamlılıq, sistemlilik pozulur. O gənc nəsildən daha təcrübəli, daha bilikli, daha çox dünyagörüşə malik 40-60 yaş arası orta nəsil var, onlar sanki ortada itir, buxarlanır.

Əvvəla, bu gənc məsul vəzifə üçün hələ hazır deyil, ola da bilməz. Xalqın, ölkənin taleyinə təsir göstərəcək qərarları hazırlayan, qəbul edən 25-30 yaşlı şəxsin yaşı, həyat təcrübəsi, bilik bazası, insanlarla işləmək üçün psixoloji hazırlığı yetərli deyil. Buna görə də, o nərdivanın bir neçə pilləsini birdən hoppanıb keçəndə burada problem olur. Lakin orta yaşlı nəsil, deyək ki, hazırda təxminən 40-60 yaş arası şəxslər həm yaşlılardan, həm də gənclərdən bütün sahələrdə daha üstündürlər, təəssüf ki, onlara həm dövlət, həm də ictimai təşkilatlarda çox az rast gəlinir.

Bu nəsil tarixin ən keşməkeşli dövrünü, ən aktiv prosesləri yaşayıb- Sovet dövrunu də görüb, müstəqilliyin əldə olunması dövründəki proseslərdə iştirak edib, beynəlxalq və ölkədaxili proseslərin içində olub, 1-ci Qarabağ müharibəsində döyüşüb, ölkənin yenidən qurulmasında əsas işçi qüvvə olub, həm əvvəlki, həm də sonrakı sosial və iqtisadi sistemləri bilir, üstəlik, o müasir texnologiyaların yaranması və formalaşmasında lap başdan iştirak edib, daha çox xarici ölkələrdə olub görüb-götürüb, dünyanı, ölkəni və xalqı daha yaxşı tanıyır. Beləliklə, bu nəsil idarəetmə və peşəkarlıq cəhətdən ideal nəsildir. Çünki həm yaşı, həm dünyagörüşü, həm təcrübəsi, həm bilik səviyyəsi, həm texnoloji sahəyə bağlılığı, həm psixoloji vəziyyətinə görə hər iki nəsildən üstündür. Bu, “Qızıl Orta” nəslidir. Lakin bu nəsil ortalıqda görünmür, başqa sözlə desək, bu, itmiş, itirilmiş nəsildir.

Son dövrlərdə çox uzun müddət vəzifələrdə ilişib qalmış bu çox yaşlı (70-80) nəsildən bezən vətəndaşlarımız tələb edirdilər ki, onlar dəyişilsin, yerinə gənclər təyin edilsin. Bir çox hallarda belə də edildi. Lakin çox azsaylı istisnalarla bu, əksər hallarda bu heç də yaxşı nəticə vermədi. Həmin sahədə daha çox problemlər yarandı, əvvəlkindən daha çətin vəziyyət yarandı.

Məhz bu səbəbdən də bu itirilmiş ortayaşlı nəslin “tapılması” və onların dövlət və ictimai strukturlarda irəli çəkilməsi, daha soğrusu yaşlı nəsli əvəzləməsi lazımdır. Belədə, həm nəsillər arası əlaqə pozulmaz, həm yanaşma daha optimal olar, həm də yaşlı və gənc nəslə xarakterik problemlər aradan qalxar. Estafet sistemi də pozulmaz-yaşlı nəsil estafeti ortayaşlı nəslə verməli, onlarda sonradan onu gənc nəslə ötürməlidirlər. Yəni, gənc nəsil aşağıdan başlayır, təcrübə bilik dünyagörüşünü artıraraq orta yaşda məsul işlərə başlayır və yaşlandıqda yerini orta nəslə verir, həmin orta nəsil də öz yerini gənclərə verir. Beləliklə, həm təbiətin qanunları pozulmur, həm cəmiyyət sistemi sağlam olur, həm də ölkədə zamanın tələblərinə uyğun inkişaf baş verir.

Dövlət sistemində, ictimai və siyasi təşkilatlarda, özəl strukturlarda belə yanaşmaya üstünlük versə, bu, ölkəmiz və xalqımız üçün daha çox faydalı olar.

İtmiş nəsli tapmalıyıq və ölkənin və xalqın yükünü onların üzərinə qoymalıyıq. Heç şübhə yoxdur ki, onlar bu yükün öhdəsindən digər nəsillərə nisbətən daha yaxşı gələcəklər və ölkəmizin inkişafına öz töhfələrini verəcəklər.

*Xəzər Strateji Araşdırmalar Institutunun (Rusiya) baş direktoru İqor Korotçenko "Moskva-Baku" portalına müsahibəsində Parisin Ermənistan-Azərbaycan trasında hərəkətləri və nizamlanmanın digər aspektləri barədə danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.*



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Rusiyalı ekspert: "Fransa dağılır, Makron ermənilərə dəstək hayındadır"

**- Son günlər idman yarışlarında eyni vaxtda bir neçə insident baş verib, Ermənistandan olan idmançılar Azərbaycan idmançılarına qarşı aqressiv davranıblar. İrəvanda keçirilən ağır atletika çempionatında bayrağın yandırılması ilə bağlı vəziyyəti xatırlayırıq, dünən və bu gün şəbəkədə eyni anda bir neçə insidentlə - erməni idmançının ona qalib gələn azərbaycanlını necə döydüyü və eyni yarışlarda azarkeşlərin necə olduğu barədə videolar peyda oldu. Ermənistan nümayəndələrinin idman meydançalarında Azərbaycana münasibətdə neqativ hallar qəribə bir normaya çevrilib**

- Baş verənlər təsadüf deyil, təkrarlanan tendensiyadır. 1980-ci illərin sonlarında Qarabağ ətrafında baş verən hadisələrin- separatçı təzahürlərlə, təxribatlarla və nəticədə azərbaycanlılara qarşı hücumlarla, onların öz torpaqlarından qovulması ilə necə başladığını xatırlayırıq.

Bundan sonra erməni tərəfi uydurma ideyanı irəli sürməyə, təbliğat aparmağa başladı ki, bütün bunları edən "Qarabağ klanı" deyil. Bəs guya ermənilərin təqib olunduğu konkret nə idi? Bu, özünüzü qurbana çevirmək üçün tipik yaxşı qurulmuş siyasətdir. Əsəblərin sıradan çıxdığı yerdə tamamilə iyrənc hiylələrdən istifadə olunur. Gördüyümüz kimi, çox vaxt hətta həddi tam keçirlər. Əsasən belə təxribatlar puça çıxır və ya Azərbaycan tərəfinə böhtan atılır. Hamımız nə baş verdiyini başa düşürük: hər şey gözümüzün qabağındadır.

Bütün bunlar uzun illər erməni əhalisinə millətçi ideologiyanın aşılanmasının nəticəsidir. Bu, Qaregin Njdenin milli eksklüzivlik üzərində qurulmuş ideologiyasının təzahürüdür. Belə bir ideologiya sivil sayıla bilməz. Çünki müasir dünyada bütün millətlər, xalqlar eynidir: onlar bərabər hüquqlara malikdirlər və bərabər hörmətə layiqdirlər. Milli müstəsnalıq iddiası yanlışdır.

Erməni "idmançılarının" son vaxtlar idman meydançalarında davranışları vəhşiliyin, qəzəbin, mədəniyyətin aşağılığının təzahürüdür. Biz Ermənistandan eyni təxribatları qoşunların təmas xəttində, Rusiya sülhməramlılarının arxasında da görürük. Rusiyadakı erməni maraqlarının ayrı-ayrı media lobbiçiləri də eyni şeyi edirlər.

Bütün bunların fonunda 2015-ci ildə Avropa Oyunları zamanı Bakıda erməni idmançının mükafatlandırılması mərasimində o fitə basılarkən Azərbaycan Prezidenti İlham Əliyevin əsl dövlət başçısı kimi necə nəcib davrandığına dair bir nümunəni xatırlamaya bilmirsən. Azərbaycan lideri idmanın siyasətdən kənar olduğunu göstərdi, bir jestlə tamaşaçıları sakitləşdirdi, şəxsən erməni idmançıya mükafat təqdim etdi, əlini sıxdı, bu da alqışlara səbəb oldu. Bu, tolerantlıq, müdriklik və ədaləti insani ədəb nümunəsidir. Bu, çoxlarında çox güclü təəssürat yaradan, hələ də xatırladığımız bir hərəkətdir. İlham Əliyev özünü müstəsna dərəcədə layiqli göstərdi, idmanın siyasətdən kənar olduğunu göstərdi.

Başqa bir müqayisə kimi qeyd edək ki, Azərbaycan Ermənistanın "həyat məntiqindən" fərqli olaraq, müxtəlif vəziyyətlərdə, o cümlədən İkinci Qarabağ müharibəsindəki qələbəsindən sonra münasibətlərin yaxşılaşdırılması üçün dəfələrlə səbr nümayiş etdirib. Ermənistan tərəfi razılaşmaların icrasına hər cür mane olur, rəsmi Bakı isə diplomatiyası, səbri, xüsusi taktikası ilə hələ də irəli gedir.

Digər nümunə multikultural Azərbaycandır ki, o, monoetnik Ermənistanla müqayisədə beynəlxalq nümunə kimi qalır. Bakı ermənilərı Bakıda necə gözəl yaşadıqlarını indi də göz yaşları, nostalji ilə xatırlayırlar. Onlar iqtisadiyyatda, siyasətdə bəzi əsas mövqeləri tuturdular, Azərbaycan hakimiyyəti hamı ilə bərabər onlara dəstək olurdu. Ermənilər Azərbaycanda çox gözəl yaşayırdılar. Azərbaycan müxtəlif millətlərin və konfessiyaların nümayəndələrinin birgə yaşayıb-yaratmasının, milli mənsubiyyətə və digər əsaslara görə heç bir ayrı-seçkiliyin olmadığının bariz nümunəsidir.

Azərbaycanda rus dilinə xüsusi münasibət şəxsən məni heyran edir. Ölkədə Rus Pravoslav Kilsəsinin Bakı-Azərbaycan yeparxiyası fəaliyyət göstərir. Rus icmasına dövlət səviyyəsində əla münasibət var.

Sadə erməni xalqı qəzəblə, revanşizmlə qidalanmasaydı, daha yaxşı yaşayardılar. Pis xalq yoxdur, amma elələri var ki, bir növ milli müstəsnalıq ideyası ilə öz xalqına ziyan vurur. Erməni xalqı irəli getməli, əslində millətin rüsvayçılığı olan "qəhvəyi" milli qəhrəmanların postament üzərində ucaldıldığı orta əsrlərin yapışqan torunu atmalıdır. Bu, qətiyyən qəbuledilməzdir. Biz çox yaxşı başa düşürük ki, Ermənistanda siyasətçilər niyə millətçilik kartını oynayırlar- öz güclərini işə salmaq üçün. Bəli, Qaregin Njdeni şöhrətləndirən Ermənistanın "Respublika Partiyası"- "Qarabağ klanı" idi, Paşinyan yox. Bu, cəmiyyəti idarə etmək, cəmiyyətdə millətçiliyi gücləndirmək, hər şeyə nifrət hissini siyasi Olimpdə varlıq vasitəsi etmək üçündür.

**- Əgər Ermənistan bu cür "həyat tərzindən" əl çəkməsə, bu, nəyə gətirib çıxaracaq?**

- Ermənistanda cəmiyyətin "həyat məntiqinin" dəyişməsi prosesi birdəfəlik proses deyil. Bunun üçün müəyyən tarixi dövr lazımdır. İndiyə qədər təəssüf ki, Ermənistanın özünəməxsus mənəvi tarixi irsindən imtina etməsi üçün heç bir ilkin şərt yoxdur. İnanmaq istərdim ki, onların yanaşmasının mənasızlığını dərk etmək, dalana dirənmək- bütün bunlar keçmişdə qalacaq.

Digər tərəfdən, tarix hərəkət edir, inkişaf edir, bəlkə də nə vaxtsa belə bir ideologiyanı təbliğ edənlər azlıqda qalacaq, cəmiyyətdə marginallaşacaq. Aydındır ki, bu, nə bu gün, nə sabah olmaya bilər, amma nə vaxtsa olacaq.

İstər Laçın yolu ərazisində, istərsə də Ağdam rayonu istiqamətində son eskalasiya hadisələri də Ermənistanın Azərbaycanla barışmaq istəməməsinin, radikal ideyaların mövcudluğunun, bir növ



*"Makron İlham Əliyevə yox, öz həyat yoldaşına təzyiq edə bilər və ola bilsin ki, bu istiqamətdə müəyyən uğur qazana bilər..."*

qisasçılıq niyyətinin təzahürüdür. Erməni tərəfinin silahlı təxribatları, atışmalar, Qarabağa silah gətirilməsi- bütün bunlar eyni millətçi revanşist məntiqdən irəli gəlir.

**- Fransa prezidenti Emmanuel Makron ölkəsindəki iğtişaşlar fonunda Cənubi Qafqazla bağlı bir sıra kifayət qədər özünəməxsus bəyanatlar verməyi zəruri hesab edib. İyunun 28-də Marseldə erməni icması və erməni müxalifətinin nümayəndələri ilə görüşündə Makron Qarabağ və digər məsələlərlə bağlı Azərbaycan prezidentinə Ermənistanın baş naziri Nikol Paşinyandan daha çox təzyiq göstərməyə çalışdığını bildirib. O özünün beynəlxalq aləmdə Qarabağla bağlı tələb irəli sürən yeganə lider olmasını qeyd edərək, bu yolda əlindən gələni etməyə davam edəcəyini deyib. Aİ-nin monitorinq missiyası ilə birgə vəziyyəti müşahidə etmək üçün vaxtaşırı Ermənistan-Azərbaycan sərhədinə səfər edən fransız siyasətçilərinə diqqət etməmək mümkün deyil. Sizcə, Fransanın Cənubi Qafqaz trasında bu cür fəallaşmasının səbəbi nədir?**

- Makronun ölkəsi dağılır, demək olar ki, qeyri-vətəndaş müharibəsi gedir, uzun müddətdir davam edən milli böhran göz qabağındadır, Fransa vaxtaşırı bu və ya digər səbəbdən talanlarla müşayiət olunan və zəif idarə olunan vəziyyətə gəlib. Xüsusən də, Əlcəzair əsilli azyaşlı uşağın qətlə yetirilməsi ilə bağlı mövcud vəziyyət Fransanın tarixi siyasəti baxımından göstəricidir. Əslində bu, müəyyən mənada milli zəmində qətldir. Makron, Fransa ilə heç bir əlaqəsi olmayan, ikinci dərəcəli hər şeyi tərk etmək, öz ölkəsinin qayğısına qalmaq, cəmiyyətlə dialoq qurmaq əvəzinə, Elton Conun konsertinə gedir və orada özünü açıq-aşkar rahat hiss edir, rəqs edir. Ətrafında hər şey yanır, problemlər boğaza çıxıb və o, Cənubi Qafqazın daxili işlərinə yöndəmsiz şəkildə qarışmağa davam edir, Zaqafqaziyada Ermənistana dəstək məsələsini gələn erməni diasporunun üzvləri və erməni müxalifəti ilə müzakirə edir. Fransa öz "bacısı"nın kürəyi arxasındadır və Azərbaycana təzyiq göstərməyə çalışır. Bu, ikili standartlardan irəli gəlir.

Fransada qəddar radikalların polisin tam razılığı ilə Azərbaycanın Parisdəki səfirliyinin binasına necə basqın etdiklərini xatırlayırıq. Və bu gün Fransa polisi öz əhalisinə qarşı cəza tədbirləri ilə məşğuldur, 45 minlik jandarm korpusu fəaliyyət göstərir, zirehli texnikadan istifadə edilir, dialoq əvəzinə hakimiyyət etirazçıları tamamilə vəhşicəsinə sıxışdırır, Makron artıq elan edib ki, aksiyalarda iştirak edən gənclərin ailələri cərimələnəcək. Fransanın bizə nümayiş etdirdiyi normalar və standartlar çox dəqiq göstəricidir.

İlham Əliyevə təzyiqlə bağlı açıqlamaya gəlincə, Makron öz həyat yoldaşına təzyiq edə bilər və ola bilsin ki, bu istiqamətdə müəyyən uğur qazana bilər...

İlham Əliyevin dəfələrlə Makronu necə sərt şəkildə öz yerinə oturtduğunu xatırlayırıq. Ona görə də Makronun bütün bu iddialı saxta bəyanatları nəyisə nümayiş etdirməyə çalışan bir Qalli xoruzunun bəyanatlarından başqa bir şey deyil. Hamı bilir ki, Makron Fransanın erməni diasporu ilə məşğuldur, bəlkə də oradan maliyyələşir. İstisna etmirəm ki, Makronun prezidentlik müddəti başa çatdıqdan sonra müvafiq faktlar üzə çıxa və o, Fransanın erməni icmasından rüşvət aldığına, onların istəklərini və siyasi sifarişlərini yerinə yetirdiyinə görə cinayət məsuliyyətinə cəlb oluna bilər.

**- Amerika danışıqlarının nəticələri heç nəyə gətirib çıxarmadı. Bəzi irəliləyişlər əldə olunub. Amma o da qeyd olunub ki, ən çətin məsələlərdə (bunlar ermənilərin təhlükəsizliyi və hüquqları, delimitasiya, guya Bakı-erməni separatçıları arasında danışıqlar mexanizmidir) daha ətraflı işlənməyə ehtiyac var. Blinken dedi ki, ən çətin məsələlər sonraya qalır..**

- Bu, eyni proseslərin davamıdır. Açığı, dəfələrlə danışıqlar olacaq. Orada bir çox problemli məsələlər var ki, onlardan biri də beynəlxalq vasitəçiliklə Bakı və erməni separatçıları danışıqlar masası arxasına çəkmək cəhdidir. Ona görə də Azərbaycanın ərazi bütövlüyünü sözdə dərk edən Paşinyan paralel olaraq Troya atı ideyasını irəli sürür- status məsələsində Qarabağ separatçılarını Bakı ilə eyni masaya oturtmaq. Bu, keçməyəcək. Ermənistan İlham Əliyevin təklif etdiyi sülh müqaviləsinin beş əsas prinsipi əsasında konstruktiv qərar qəbul edənə qədər danışıqlar davam edəcək.

**- Qarşıda Azərbaycan və Ermənistan liderlərinin Brüsseldə görüşü olmalıdır...**

- Düşünürəm ki, ABŞ-dakı kimi nəticə olacaq. Bunlar ara addımlardan başqa bir şey deyil. Rusiya bu prosesləri izləyir, biz Ermənistan-Azərbaycan nizamlanmasında əsas vasitəçilərdən biriyik. Və ümid edirik ki, bizim rolumuz və dəstəyimizlə, köməyimizlə daha real nəticələr əldə ediləcək. Ermənistan konstruktiv mövqe tutmayana qədər danışıqlar davam edəcək.

*Tərcümə - Elçin Bayramlı*

SON SƏHİFƏ
SƏS
6 iyul
2023-cü il

# Təbiət hadisələri turizm sektoruna NECƏ TƏSİR EDİR?

***"Ümumiyyətlə zəlzələ və ya digər təbiət hadisələri turizm sektoruna təsir edən ilk amillərdən biridir. Turizm sektoru həssasdır. Çünki insanların birbaşa təhlükəsizliyinin təmin olunması əsas şərtlərdən biridir. Hər hansı bir həssas hadisə turizm sektorunda durma və dayanmaya səbəb ola bilər". Bu sözləri SİA-ya açıqlamasında turizm eksperti Ceyhun Aşurov deyib.***

Onun sözlərinə görə, insanlar özlərini ilk növbədə təhlükəsiz hiss etmək istəyirlər: "Düşünmürəm ki, bu ciddi şəkildə bölgələrə turistlərin axınının qarşısını alacaq. Zəlzələnin episentri paytaxtdan uzaqdadır. Bakıda ciddi təşvişə səbəb olmayıb. Dağıntı, fəlakət qeydə alınmayıb. Bu mənada onu demək lazımdır ki, təhlükəli vəziyyət yoxdur. Bu, qısa müddət ərzində sadəcə təşviş yaratdı".



**EKSPERT ŞƏRH ETDİ**

Ekspert sözlərinə davam edərək bildirib ki, zəlzələnin turizmə ciddi təsiri olacağını düşünmürəm: "Dağıntı, tələfat olsaydı, turizmin tamamən dayanmasına gətirib çıxarardı".

***Ləman Əlizadə***

# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Çimərliyə gedənlər, bu məlumatı mütləq oxuyun!

***Yay aylarında çimərliyə gedərkən maksimum dərəcədə yüngül qidalara üstünlük vermək lazımdır. SİA xəbər verir ki, bunu Səhiyyə Nazirliyinin mütəxəssis eksperti, həkim-terapevt Zakir Quliyev deyib. Həkim qeyd edib ki, çimərliyə gedərkən qida götürən zaman tərkibi tez dəyişməyənlərə üstünlük vermək lazımdır:***



"Çimərliyə səhər saatlarından 11:00-a qədər, axşam saat 17:00-dan sonra getməyə üstünlük vermək lazımdır. Geyim seçimi zamanı açıq rəngli paltarlara üstünlük vermək tövsiyə olunur. Eyni zamanda, günəş kremlərindən və digər Günəşin şüalarından qoruyan vasitələrdən istifadə etmək lazımdır. Dənizdə üzmədən öncə spirtli içkilərdən istifadə yolverilməzdir".

# "Nar" gəncləri nitq bacarıqlarını gücləndirməyə dəvət edir




"Nar" gəncləri 1 avqust-Azərbaycan əlifbası və Ana dili günü münasibətilə "Diksiya Akademiyası" və "ASAN Könüllüləri" ilə birgə təşkil olunan "Ana dilində hekayəni danış" natiqlik çempionatına dəvət edir. Üçüncü dəfə keçiriləcək çempionat gənclərin natiqlik bacarıqlarını nümayiş etdirmələri və ana dilində özlərini ifadə etmələri üçün platforma təmin etmək məqsədi daşıyır.

Mobil operatorun dəstəyi ilə həyata keçirilən "Ana dilində hekayəni danış" natiqlik çempionatı 3 tur və final mərhələsindən ibarətdir. Üç ay davam edəcək müsabiqədə iştirakçılara hərtərəfli natiqlik təlimləri keçiriləcək və ünsiyyət bacarıqlarını inkişaf etdirmələri üçün şərait yaradılacaq. Çempionatın qalibləri isə 1 avqustda keçiriləcək tədbirdə elan olunaraq dəyərli hədiyyələrlə mükafatlandırılacaq.

Dilin nəsillər arasında körpü və mədəni ifadə vasitəsi kimi gücünə inanan "Nar" ana dilimizin inkişafına yönəlik layihələri dəstəkləməklə Azərbaycan mədəniyyətinin qorunub saxlanmasına və təbliğinə fəal töhfə verir, eyni zamanda gələcək nəslə ünsiyyətdə və özünüifadədə üstün olmağa imkan yaradır. Mobil operatorun korporativ sosial məsuliyyət sahəsində gerçəkləşdirdiyi layihələrlə nar.az/projects səhifəsindən ətraflı məlumat əldə edə bilərsiniz.

Nar hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. Nar son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Doğum günün mübarək!



**Bu gün Fatimə Məhərrəmovanın 6 yaşı tamam olur. Doğum günü münasibətilə fidan balanı atası Əmir təbrik edir, ona uzun ömür, cansağlığı, xoşbəxtlik arzulayır.**

**Təbriklərə Məmmədhəsən Məmmədov da qoşulur!!!**

*Baş redaktor:*
Bəhruz Quliyev

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000